# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 82 (3406) Cümə axşamı / 21-27 oktyabr 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## “İran Azərbaycanın müttəfiqləri ilə düşmənçilik edir”



**Anatoli Pinçuk,**
Şərqi Avropada Təhlükəsizlik İnstitutunun İdarə Heyətinin sədri

*Uzun müddətdir xalqımızın qanayan yarası olan Qarabağ münaqişəsi 44 gün sürən Vətən müharibəsində qazandığımız şərəfli qələbəylə başa çatdı. Düzdür, 3 min övladımız şəhid oldu, amma azadlıq şəhid vermədən əldə olunmur. Gəl ki, cəmi bir ildir Qarabağa gətirdiyimiz azadlığı bizə çox görən, bundan qeyzlənən, acığa düşüb torpaqlarımıza qarşı az qala “səlib yürüşünə” çıxan üzdə dost, əslində isə məkrli düşmənlərimiz durmadan üstümüzə gəlməkdədirlər.*

*Layihənin əsas ideoloqu və lobbiçisi Azərbaycan prezidenti İlham Əliyevdir*

Səh. 3

# Pensiyalar nə qədər artırılacaq?

***Prezident İlham Əliyev “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” sərəncam imzalayıb. Hafta.az-ın məlumatına görə, sərəncama əsasən, Nazirlər Kabineti əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılmasının təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.***

***Nazirlər Kabineti, eyni zamanda, bu sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, Sərəncam beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarının yumşaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Beləliklə, aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsi onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılır.***

***Sosial ödənişlərdə növbəti artımlar edilməsini nəzərdə tutan bu Sərəncam vətəndaş rifahının təminatı və həssas qrupların sosial müdafiəsinin Prezident İlham Əliyevin siyasətində başlıca istiqamət olduğunu bir daha təzahür etdirir. Bu sahədə islahatlar xüsusilə son illərdə inqilabi xarakter alıb. Sosial islahat paketləri nəticəsində müavinət və təqaüdlərin, pensiya və əməkhaqlarının ciddi şəkildə artımı təmin edilib, yeni sosial təminat növləri təsis olunub. 2018-ci ilin əvvəli ilə müqayisədə ölkəmizdə orta aylıq nominal əmək haqqı məbləği 39%, əmək pensiyalarının orta məbləği 60%, sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezidentin təqaüdlərinin orta məbləği 2,2 dəfə artıb.***



Son üç ildə ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5%-dən 2020-ci ildə 38%-ə yüksəlib, bu da aşağı gəlirli vətəndaşlarımızın rifahının artırılması, layiqli əmək haqqı hədəflərinə nail olunması və həmin nisbətin Avropa Sosial Xartiyası normalarına uyğunluğunun təmin edilməsində ciddi irəliləyişdir. Ümumilikdə son üç ildə ölkəmizdə fərman, sərəncam, qanun və s. ibarət olmaqla qəbul edilən 900-dən çox normativ-hüquqi akt əhalinin sosial rifahın yaxşılaşdırılmasına xidmət edən sənədlər olub və sosial təminat növləri üzrə ödəniş alanların sayı 160 min nəfər artaraq 2,4 milyonu ötüb.

“Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” yeni Sərəncam ölkəmizdə sosial inkişafın davamlı xarakter almasını, sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların növbəti mərhələsinə keçidi təmin edir və ümumilikdə 1 milyon 800 min nəfərədək vətəndaşımızın rifahının daha da yaxşılaşmasına xidmət edəcək. “Maaşların, təqaüdlərin və müavinətlərin artırılması ilə bağlı indeksasiya aparılmalıdır. Ölkədə müxtəlif kontingentlər var. Həmin kontingentlərə uyğun olaraq da artımlar olmalıdır. Minimum əməkhaqqı alanların əmək haqqı artırılmalıdır, pensiya alanların pensiyası artırılmalıdır və s”.

*“İndeksasiya aparılmalıdır ki, əhalinin minimum istehlak səbətini təmin etmək üçün nə qədər vəsait lazımdır*




■ **Bu fikirləri hafta.az-a açıqlamasında iqtisadçı alim, professor Əli Əlirzayev bildirib. Onun sözlərinə görə, minimum istehlak səbətini təmin etmək üçün hökumət ən azı 20 faiz civarında artımı təmin etməlidir:** “Bütövlükdə götürəndə indeksasiya aparılmalıdır ki, əhalinin minimum istehlak səbətini təmin etmək üçün nə qədər vəsait lazımdır. Buna uyğun minimum əməkhaqqı artırılmalıdır. Və yaxud orta təbəqənin istehlak səviyyəsi nə qədərdisə ona uyğun olaraq artımlar edilməlidir. Yəni, gəlirlər və istehlak arasında olan nisbəti saxlamaq yolu ilə artımlara getmək lazımdır. Minimum istehlak səbətini təmin etmək üçün hökumət ən azı 20 faiz civarında artımı təmin etməlidir”. Ə. Əlirzayev bu il ölkədə infilyasiya səviyyəsinin ötən illərlə müqaysədə yüksək olacağını da vurğulayıb. Onun sözlərinə görə 2021-ci ildə Azərbaycanda infilyasiya 5 faiz həddindən yüksək olacaq.

■ **“Gələn ilin büdcə layihəsi ilə bağlı ictimailəşdirilən sənəddən yola çıxmış olsaq, təxminən, 10-15 faiz civarında əməkhaqqı fondunun artırılması nəzərdə tutulur. Bu yanaşma ola bilsin ki, ötən gün imzalanan sərəncamdan sonra nisbətən dəyişsin. Yenə də ehtimallarım ondan ibarətdir ki, əməkhaqqı fondunda artımlar 10 faiz ətrafında olacaq”. Bu fikirləri hafta.az-a açıqlamasında iqtisadçı ekspert Rəşad Həsənov bildirib.** Ekspert qeyd edir ki, real situasiyanı nəzərə almış olsaq, vəziyyət tamamilə fərqlidir: “Burada söhbət təqaüdlərdən, müavinətlərdən, pensiyalardan gedir. Yəni bunlar, xüsusilə də əhalinin aztəminatlı sosial qruplarıdır ki, burada artıq diferensiallıqdan söhbət gedir. Əgər biz dəyişənlərin heç birini nəzərə almasaq, yəni, əhalinin vəziyyətinin ümumi yaxşılaşdırılması, əhalinin zənginlik səviyyəsinin artırılması və s. və biz minimum əməkhaqqından danışırıqsa, bu istiqamətdə 40 faiz artımı nəzərdə tutan qərar qəbul olunmalıdır. Bu gün gündəlik tələbat malları üzrə qiymətlərin artması, ərzaq məhsulları üzrə qiymətlərin artımı və 2021-ci ildə qəbul edilən qərarlar nəticəsində kommunal xərclərdən yaranmış maliyyə yükünü, təxminən, qarşılamaq üçün ay ərzində ailə büdcəsinə əlavə olaraq 100 manat vəsait daxil olmalıdır. Yəni, minimum əməkhaqqı artımının 40 faizi olması, orta aylıq əməkhaqqı səviyyəsində maaş alanlar üzrə məvaciblərin, təxminən, 15 faiz civarında artırılması tövsiyə olunandır. Burada əhalinin daha az gəlirli təbəqəsinin gəlirlərinin daha çox artırılması vacib məsələdir. Dəyişənlər əsasən fundamental xərclər üzrədir. Bu ərzaq məhsullarıdır, zəruri tələbat mallarıdır, kommunal xidmətlərdir və s. Hansı ki, bunlardan kasıb da, varlı da istifadə edir. Ona görə də burada əhalinin daha az gəlirli hissəsində artım səviyyəsi yuxarı gəlirli hissəsi ilə müqayisədə daha yüksək faizlərlə əks olunmalıdır.

Səh. 7

MÜSAHİB



**Seyran Səxavət,**
yazıçı, dramaturq

■ Əgər Tural Gəncəliyev doğrudan da bu fikirləri işlədibsə, günü bu gün deputatlıqdan istefa versin...

■ Hələ o vaxt demişdim ki, Qarabağ haqqında ən yaxşı əsəri Ali Baş Komandan və Azərbaycan Ordusu yazmalıdır...

■ İran bu qələbəni həzm etsə də, etməsə də özü bilər. Onlar bir qonşu kimi, İslam dövləti kimi heç vaxt Azərbaycanın qələbəsinə sevinməyəcək.

Səh. 5

GÜNÜN FOTOSU...



**Bakıda bal yarmarkası...**

GÜNÜN SİTATI



*“Ümid edirik ki, Ermənistan hökuməti tərəfindən verilən son müsbət mesajlar yalnız sözdə qalmayacaq, əməli istiqamətdə də müsbət nəticələr əldə edəcəyik”*

**Ceyhun Bayramov,**
Azərbaycanın xarici işlər naziri

KARİKATURA




**Azərbaycanda 12-15 yaşlı yeniyetmələrə vaksin vurulacaq...**

## “Zəngilan azaddır!”

**Bayram Məmmədov,**
Zəngilan özünümüdafiə taborunun kesmiş komandiri

Prezident bütün rayonlara səfərlər etdi, rayonlarda bayraqlar qaldırıldı və yeni quruculuq işlərinə başlanıldı. Şükür ki, Füzuli Beynəlxalq Aeroportu hazırdır.

Səh. 2

STATİSTİKA



■ **Azərbaycan bu il ərzində qeydə alınan nikah və boşanmaların sayı açıqlanıb.**

2021-ci ilin yanvar-avqust aylarında qeydiyyat şöbələri tərəfindən 36063 nikaha daxilolma və 11313 boşanma halı qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 3,5-dən 5,4-ə, boşanmaların sayı isə 1,4-dən 1,7-yə qədər artıb.



Səh. 7

## Kişi, yoxsa qadın müəllim?

PREZİDENTİN İŞ GÜNÜ

# Prezident və birinci xanım Zəngilanda



**Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə olublar.**

Hafta.az xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi ilə, Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar, "Azərişıq" ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

***



**Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Zəngilan şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında sərəncam verib.**

Sərəncamla Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Zəngilan şəhərinin Baş planının hazırlanması üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılır.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

# "Ümid edirik, Ermənistanın müsbət mesajları yalnız sözdə qalmayacaq"

**"Bir neçə gündən sonra Vətən müharibəsinin başa çatmasının bir ilini qeyd edəcəyik. Xorvatiyalı həmkarımla müzakirələrimizdə üçtərəfli bəyanatların imzalanması, regionda yaranan yeni reallıqlar və onun perspektivləri müzakirə olunub. Azərbaycanın apardığı işlər barədə həmkarımı məlumatlandırdım".**

Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov xorvatiyalı həmkarı ilə birgə mətbuat konfransında bildirib. C. Bayramov deyib ki, Xorvatiyanın təcrübəsi nəzərə alınaraq, post-münaqişə dövründə məcburi köçkünlərin geri qayıtması, reinteqrasiya məsələləri müzakirə olunub: "Dost və tərəfdaş şirkətlərin azad olunmuş ərazilərdə fəaliyyətini müzakirə etdik. Xorvatiya ilə minatəmizləmə sahəsində əməli işlər aparılır, müvafiq avadanlıqlar sifariş edilib və onlar Azərbaycana çatdırılır". Nazir qeyd edib ki, görüşdə beynəlxalq hüququn norma və prinsiplərinə əsasən, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, bəyanatların müddəalarının reallaşmasının labüdlüyü vurğulanıb: "Razılaşmanın vacib hissəsi olan kommunikasiyaların açılması ilə bağlı üçtərəfli komissiyanın bu gün Moskvada iclası keçirilir". C. Bayramov indiyədək Ermənistan tərəfindən ziddiyyətli bəyanatlar verildiyini, üçtərəfli komissiyanın iclaslarının bir müddət dayandırıldığını bildirib: "Ümid edirik ki, Ermənistan hökuməti tərəfindən verilən son müsbət mesajlar yalnız sözdə qalmayacaq, əməli istiqamətdə də müsbət nəticələr əldə edəcəyik".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# "Zəngilanın azadlığı 28 illik arzumuz idi"

## Qarabağ

***Zəngilan rayonunun Dəmir Yumruğun gücü ilə işğaldan azad olunduğu günü qeyd etdik. Tarix unudulmur, səhvləri, doğruları ilə yazılır... Bu istiqamətdə hafta.az-a müsahibə verən ehtiyatda olan polkovnik-leytenant, 10 noyabr 1991-ci ildən Müdafiə Nazirinin əmri ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmətə çağırılmış və Zəngilan rayon ərazi özünümüdafiə taborunun - 806 saylı hərbi hissənin komandiri olmuş Bayram Məmmədov Zəngilanın o ağır və bu xoşbəxt günündən danışdı...***

***- Bayram müəllim, Zəngilan işğaldan azad olundu. Şükür edirik...***

- Zəngilanın azad olunması bizim 28 illik arzumuz idi. Bu, müzəffər Azərbaycan Ordusunun rəşadəti, qəhrəmanlığı Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab Prezident İlham Əliyevin qətiyyətli iradəsi ilə baş verdi.

Ölkə əhalisi buna çox sevindi. Zəngilan təkrarolunmaz yeraltı və yerüstü təbiətə, qədim tarixə malikdir. Digər rayonlar kimi, Zəngilan da erməni qəsbkarları tərəfindən amansızcasına tarimar edilib.

***- Zəngilanın 30 ilə yaxın bir işğal müddəti də var. Bu tarixə nəzər salarkən hansı amillərin üzərində dayanardız?***

- 1980-ci illərin sonunda mənfur düşmənlə üz-üzə qalan Azərbaycanda müharibə alovlanırdı. Bu proses Dağlıq Qarabağdan başlayaraq digər rayonları da əhatə etdi. Azərbaycanın ən ucqar rayonu olan Zəngilan rayonu da bu işğal faktı ilə üzləşdi. Erməni daşnaqları havadarlarının "xeyir-duası" ilə hərbi dəstələrlə rayonun Seyidlər, Ağkənd, Qazançı, Kürdışlaq, Canbaq, Peri, Koroğlu, Yuxarıyeməzli kəndlərində, onun dağlarında təxribat işləri aparırdı. Müasir silahlardan, avtomatlardan, qrantlardan istifadə edərək əhali arasında vahimə yaradırdı. Bir çox hallarda isə dinc əhalini girov götürür, insanlığa yaraşmayan iyrənc hərəkətlər edirdilər. Belə bir çətin dövrdə Azərbaycan dövləti müstəqilliyə doğru ilk addımlarını atırdı. Azərbaycanın ordusu yox idi və o dövrün rəhbərliyi ordunun yaradılmasını çətinləşdirirdi.

***- Çətinlik nədə idi?***

- Qeyd edim ki, Zəngilanın ərazi üzrə ilk müdafiə taborunun komandiri mən olmuşam. Zəngilanla bağlı çox faktları bilirəm...

...Uzun müzakirələrdən sonra qərara alındı ki, Azərbaycanda ordu yaradılsın. Vəziyyət, sanki haradansa idarə olunurdu, hər vasitə ilə ordunun yaradılması işini ləngidirdilər. 1991-ci ilin avqust ayında bu məsələ bir qədər sürətləndi. Mən Politologiya İnstitunu fərqlənmə ilə bitirib rayona qayıtmışdım. 1991-ci il avqustun 1-də Xalq Deputatları Sovetinin İcrayə Komitəsinin sədr müavini təyin edildim. Bildiyimiz kimi, Zəngilan İranla, eyni zamanda Ermənistanın ərazisindəki Mehri və Qafanla həmsərhəddir. Sərhəd kəndlərin əhalisinin təhlükəsizliyini təmin etmək lazım idi. Rayonda SSRİ daxili qoşunların hissələri var idi. Mən vəzifəyə başlayanda artıq ayrı-ayrı rayonların hamısında əhali əldə elədikləri silahlarla ov tüfəngləri ilə növbə çəkirdi. Nəhayət, qərara alındı ki, ordu yaransın. Noyabr ayında Valeh Bərşadlı müdafiə naziri təyin olunmuşdu. Dadaş Rzayev Azərbaycan Respublikasının Ərazi Özünümüdafiə Qüvvələrinin komandanı təyin olunmuşdu. Nə qərargah var idi, nə texnika, nə maddi-texniki baza. Nəhayət, sentyabr ayının ortalarından artıq Zəngilan rayonunda bu işlə intensiv şəkildə məşğul olmağa başladıq. 144 nömrəli Zəngilan Peşə Məktəbi ərazi üzrə müdafiə taborunun bazasının yaradılması üçün ayrıldı. O dövrdə Zəngilan Rayon Xalq Deputatları Soveti İcrayə Komitəsinin sədri Zakir İbrahimov idi. Olduqca vətənpərvər insan idi. Əlindən gələn hər şeyi elədi. Açığını deyim, Zakir İbrahimovun rəhbərliyi ilə bu işi Zəngilanda çox yaxşı qurduq. Demək olar ki, ərazi üzrə müdafiə taborunu formalaşdırmışdıq. Oktyabrın ortalarında sərhəd rayonundan olan komandirləri müdafiə nazirliyinə topladılar. Valeh Bərşadlı axırda bizimlə görüş keçirdi. Orada Laçından Arif Paşayev, Qubadlıdan Əlyar, Dağıbəy, Zəngilandan mən, Goranboydan Maşallah Abdullayev... Əsasnamə hazırlasalar da, nədənsə bir şey alınmadı. Yəni ərazi müdafiə taborunun yaradılması işi çox çətin, mürəkkəb şəraitdə getdi. Bütün bunların hamısı bizim o dövrdəki rəhbərliyin ordunun yaradılmasna, müdafiə sisteminin qurulmasına biganə yanaşmaları idi. Ovaxtkı rəhbərlik Ayaz Mütəllimov idi, Baş nazir Həsən Həsənov. Onlar bir neçə dəfə Ali Sovetdə toplaşıb milli qvardiya yaratmaq istədilər, hər vəchlə ordu quruculuğunu ləngitdilər.

> *Erməni daşnaqları havadarlarının "xeyir-duası" ilə hərbi dəstələrlə rayonun Seyidlər, Ağkənd, Qazançı, Kürdışlaq, Canbaq, Peri, Koroğlu, Yuxarıyeməzli kəndlərində, onun dağlarında təxribat işləri aparırdı*



**Bayram Məmmədov,**
Zəngilan özünümüdafiə taborunun keçmiş komandiri

***- Niyə Ordunun yaranması bu qədər ləngidi?***

- Ermənilər hər yerdə vəzifələrdə idi. Təsəvvür edin, Valeh Bərşadlı kimi hərbi sərkərdə strategiya, taktikanı çox gözəl bilən adam, bu sahədən uzaqlaşdırılmışdı. O, Alman Qoşunları Qrupunun müavini olmuşdu. Bu insanı ermənilərin təkidi ilə vaxtından qabaq istefaya göndərmişdilər. O vaxt ulu öndərimiz Heydər Əliyev onu Bakıya dəvət eləmişdi. İndiki Naxçıvanski adına liseyin direktoru qoymuşdu. Əvvəlcə isə Bakı Ümumqoşun Məktəbinin komandiri təyin etdirmişdi. Bugünkü qalib ordumuz Heydər Əliyevin dəstəyi nəticəsində yaradılan o məktəbdən çıxmışdı. Heydər Əliyevin Naxçıvan liseyini yaratması, sonradan Ali Ümumqoşun Komandirlər məktəbinin şəbəkəsini genişləndirməsi, oranın milli kadrlarla möhkəmləndirilməsi çox şeyi dəyişdi. Heydər Əliyev Valeh Bərşadlıya göstəriş vermişdi ki, harada azərbaycanlı hərbçi var yığın, toplayın. Bizi məğlub edən 91-ci ilin rəhbərliyi isə daha çox Mərkəzə xidmət edirdi. Ermənilər də bundan çox məharətlə istifadə elədi.

Təsəvvür edin ki, Bakıda Zaqafqaziyanın qoşun qrupları var idi. Hərbi Hava Qüvvələrinə rəhmətlik Ağa Hüseynov komandanlıq edirdi. Əgər qanuni şəkildə işləsəydilər, heç bir xərc çəkmədən Azərbaycan qısa müddətdə öz ordusunu yarada bilərdi. Yəni bu şans əldən verildi. Nəticədə, torpaqların işğal edilməsi baş verdi, uğursuzluğa düçar olduq. Ermənilər Azərbaycanı gözəl tanıyırdılar. 40 min ermənінin Azərbaycanda yerləşməsi də ermənilərin hər nöqtəmizi yaxşı bilməsi idi. Bu 30 ildə Azərbaycan, demək olar ki, dağılmaq ərəfəsində idi. Heydər Əliyevin hakimiyyətə qayıdışı, yenidən seçilməsi vəziyyəti dəyişdi. Heydər Əliyev bütün qüvvəsini düşməni dayandırmaq işinə sərf elədi. Ondan sonra İlham Əliyevin Prezident seçilməsi ilə müasir ordu daha da müasirləşdirildi.

***- Azərbaycana qarşı xaricdən yönələn təsirlər, ölkə daxilindəki əks-qüvvələrin "tərk-silah" edilməsi, eləcə də daxili-xarici siyasətimizdəki vəziyyət nə dərəcədə balanslaşdıra bilib?***

- Ölkə başçısının yeritdiyi düzgün siyasət nəticəsində xalqla rəhbərliyin birliyi, eyni zamanda siyasi partiyalara dialoq mühiti yaradıldı və bu istiqamətdə də böyük işlər görüldü. Bütün partiyalar prezidentin siyasətini dəstəklədi. Qarabağ məsələsində ayrı-seçkilik olmadı. Biz bunu 44 günlük müharibə gedən dövrdə də gördük. Bütün partiyaların liderləri çıxış etdi, həmrəy oldular, çünki bu, hamının arzusu idi. Dəmir Yumruqla düşmənin başı əzildi. Bu gün isə bizim qarşımızda duran əsas məsələ sülh sazişidir. O proses gedir. Prezident bütün rayonlara səfərlər etdi, rayonlarda bayraqlar qaldırıldı və yeni quruculuq işlərinə başlanıldı. Şükür ki, Füzuli Beynəlxalq Aeroportu hazırdır. Zəngilanda çox intensiv şəkildə işlər gedir. Zəngilanın Ağalı kəndində 200 ailə üçün evlər tikilib. İlin sonuna böyük köç olacaq. Kəlbəcərdə, Laçında hava limanlarının tikilməsi, kiçikhəcmli SES-lərin yaradılması böyük perspektivlərdən xəbər verir. Bu torpaqların hamısı var-dövlətdir. Füzuli, Kəlbəcər, Zəngilan, Ağdam, Laçın, Qubadlı mineral ehtiyatları ilə zəngindir. Vaxtilə Ağdam taxıl istehsalına görə Azərbaycanda 1-ci yeri tuturdu.

***- Bayram müəllim, adını çəkdiyiniz o rayonların sırasında Xocalını, Xankəndini, Ağdərəni nə vaxt görəcəyik?***

- Proseslər gedir. Hər bir məsələni açıqlamaq olmur. 30 il ərzində yığılıb qalan istəyimiz 44 gün ərzində həll olundu. Bu gün dövlət səviyyəsində proseslər gedir, inanıram ki, öz bəhrəsini verəcək. Bizim o torpaqlarda gürcü də, malakan da, rus da, erməni də yaşayıb. O torpaqların hamısı bizimdir. Erməni yaşayırsa, bu o demək deyil ki, həmin yerlər erməni torpağıdır. Yəqin ki, yaxın zamanlarda o yerlərdə də Azərbaycan Bayrağı dalğalanacaq, qanunlarımız işləyəcək.

Nəhayət, bir daha deyim ki, Zəngilan azad olunan gün özümü dünyanın ən xoşbəxti hesab elədim. Bütün zəngilanlıları təbrik edirəm. İnşAllah, işğaldan azad edilən rayonlarımızda başlanan quruculuq işləri başa çatandan sonra xalqımız gedib o cah-cəlalda - Zəngilanda o gözəlliyi duyacaq, zəngin torpağın varından istifadə edəcək.

✍ ***Tahirə Qafarlı***

# Ermənistan Azərbaycanın ona tanıdığı tarixi şansı dəyərləndirə bilsə...



**Ramil Vəlibəyov,**
Yeni Azərbaycan Partiyası
Nizami rayon təşkilatının sədri

**"Vətən müharibəsində Azərbaycanın parlaq zəfər qazanmasından sonra Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycan ərazi bütövlüyünü bərpa etməklə, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirdi.**

2020-ci il noyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin üçtərəfli Bəyanatı imzalanmaqla Ermənistan-Azərbaycan münaqişəsinə son qoyuldu. Azərbaycan Silahlı Qüvvələrinin 300-dən çox şəhəri və kəndi döyüş meydanında azad etməsindən sonra üçtərəfli Bəyanata müvafiq olaraq, Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın Ağdam, Laçın və Kəlbəcər rayonlarının işğal edilmiş hissəsindən çıxardı. Beləliklə, Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll etdi". Bunu hafta.az-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov deyib.

Ramil Vəlibəyov bildirib ki, bu gün Azərbaycan qalib ölkə kimi Ermənistanla münasibətləri normallaşdırmağa hazırdır: "Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasında çıxışında bir daha qeyd edib ki, Azərbaycan ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına və sülh sazişinin təfərrüatlarının müəyyən edilməsi üçün Ermənistanla danışıqların aparılmasına hazırdır. Ümid edirik ki, Ermənistan rəhbərliyi bu tarixi şansı əldən verməyəcək".

"Ermənistan Azərbaycanın ona tanıdığı tarixi şansı dəyərləndirə bilsə, iflasdan və kollapsdan yayına biləcək", - deyən Ramil Vəlibəyov əlavə edib ki, Qarabağın, Şərqi Zəngəzurun bərpası, Zəngəzur dəhlizinin işə düşməsi bütövlükdə region üçün inkişaf, əməkdaşlıq və təhlükəsizlik şəraiti yaradacaq: "Ermənistan son 30 il ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərini minalayıb, bütün binalar, tarixi abidələr dağıdılıb, 67 məsciddən 65-ni tamamilə məhv ediblər. Eyni zamanda, Füzuli, Ağdam, Cəbrayıl rayonlarında, demək olar ki, bütün binalar və evlər yerlə-yeksan edilib. Təsadüfi deyil ki, Ağdam şəhəri "Qafqazın Hirosiması" adlandırılır. Təqribən, 30 il müddətində Ermənistanın nəzarəti altında olmuş Azərbaycan ərazisi narkotrafik üçün istifadə olunub. Bütün bunlar, əlbəttə ki, etimad, restavrasiya və bərpa tədbirlərinin görülməsini tələb edir. Bunun üçün isə Ermənistan real vəziyyəti düzgün təhlil etməli, dəyərləndirməli və Azərbaycanla münasibətlərini normallaşdırmasına çalışmalıdır. Yalnız bu cür mövqe ilə İrəvanın perspektiv xaos və kollapsdan qaçması mümkün olacaq".

✍ ***Azad***

# Zəngilan azad olunmaqla yeni təmas xətti yaradıldı

**"44 günük müharibədə cənubda keçirilən əməliyyatların ciddi bir önəmi var.**




Bu əməliyyatlar həm düşmənə yeni cəbhə açdı, həm də İranla sərhədin nəzarətə götürülməsi, düşmənə ola biləcək texniki dəstəklərin qarşısının alınması baxımından əhəmiyyətli idi. Bu mənada Zəngilan və orada bir sıra kəndlərimizin azad olunması çox önəmli idi".

■ **Bunu Zəngilanın işğaldan azad olunmasının hərbi əhəmiyyəti ilə bağlı hafta.az-a hərbi ekspert Ruslan İmamquliyev bildirib.** R.İmamquliyev qeyd edib ki, 44 günlük müharibədə başlanmış əməliyyatlar sadəcə şərq-qərb istiqamətində həyata keçirilirdi. Bu genişmiqyaslı əməliyyatlar özü-özlüyündə düşməni çətin vəziyyətə salırdı. "Döyüşün gedişatında bizim silahlı qüvvələrimizin düşmənin dərinliyinə sızması, düşmənin şərq istiqamətində deyil, bütün istiqamətlər üzrə təhdid altına salınması idi. Bu da düşmənin bir çox hallarda ya ehtiyatlarını tətbiq etmə məcburiyyətində qalması, yaxud ehtiyatların tətbiq edilməsindən məhrum olma vəziyyətinə düşürülməsi idi. Düşmənin bir çox ehtiyatları darmadağın edilmişdi. Bunun da başlıca səbəblərindən biri döyüşün ilk günlərində hava üstünlüyünün Azərbaycan Silahlı Qüvvələrində olması, düşmənin kəşfiyyat vasitələrinin darmadağın edilməsi və kor vəziyyətinə salınması idi. Cənub istiqamətində ordu korpuslarımızın həyata keçirmiş olduğu yarma əməliyyatı nəticəsində düşmənin dərinliyinə qədər nüfuz etməsi, Cəbrayılın, Hadrutun, Füzulinin azad olunması və cənub istiqamətində əməliyyatların daha da genişlənərək Zəngilanın, Qubadlının azad olunması ilə nəticələndi. Cənub istiqaməti tam nəzarətə götürüldü".

Hərbi ekspert bildirir ki, Cəbrayıldan sonra Zəngilanın azad olunması ilə ordumuz cənub-şimal istiqamərlərində də geniş cəbhədə yeni təmas xətti yaranmışdı.

"Nəticə göz qabağında idi. Düşmən artıq təslim vəziyyətinə gəldi. Bir-birinin ardınca torpaqların azad olunmasının şahidi olduq. Laçında bir sıra yüksəkliklərin, Laçın karidorunun nəzarət altına götürülməsi, Şuşanın azad olunması ilə düşmənin təslim aktına imza atması, düşmənin Ağdam, Kəlbəcər, Laçın kimi rayonları təslim etməsinə səbəb oldu".

✍ ***Tahirə***

# Milyardlarla dollarlıq narkoticarət

## Araşdırma

***Ermənistan tərəfindən işğal olunan Azərbaycan ərazilərinin uzun müddət narkotik vasitələrin becərildiyi və narkotranzit kimi istifadə edilməsi faktı Dövlət Təhlükəsizlik Xidmətinin məlumatlarında dəfələrlə təsdiqlənib. Araşdırmalar göstərir ki, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin bir hissəsinin əkilməsi, yetişdirilməsi və toplanması Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində təşkil edilib. Sonradan həmin narkotik vasitələr İrana, oradan da Azərbaycana gətirilib. Dəfələrlə sübut olunub ki, narkoticarət Ermənistanın dövlət siyasətinə çevrilib.***



### Qarabağda İran - Ermənistan əməkdaşlığı

Ölkəmiz üçün ən narahatedici məqam isə ermənilərin işğal etdikləri Qarabağ ərazilərindən narkotik vasitələrin daşınmasında tranzit kimi istifadə olunmasıdır.

Qeyd edək ki, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının bir neçə il əvvəlki hesabatında da bildirilirdi ki, Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisi narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, transmilli cinayət üçün nəzarətsiz ərazi kimi istifadə olunur. Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması nəticəsində ölkənin 132 kilometrlik sərhədi nəzarət olunmayan əraziyə çevrilib. Ölkə ərazisindən narkotiklərin daşınması üzrə 3 beynəlxalq marşrut keçir. Bu marşrutlar Əfqanıstan-Pakistan-İran-Azərbaycan, Əfqanıstan-İran-Azərbaycan, Əfqanıstan-Orta Asiya-Azərbaycandır. Beynəlxalq marşruta daxil edilməyən daha bir marşrut var ki, bu da Əfqanıstan-İran-Dağlıq Qarabağdır.

Azərbaycan xüsusi xidmət orqanlarının apardığı araşdırmalar, əməliyyat xəbərlərinə görə, narkotacirlərin bu gün istifadə etdikləri ən təhlükəsiz marşrut məhz Ermənistan ərazisindən keçir. Bu marşrutlar Əfqanıstan-İran-Ermənistan-Rusiya, Vətən müharibəsindən əvvəl isə Qarabağ-İran-Azərbaycan-Rusiya, Qarabağ-Ermənistan-Rusiya olub. Nəzərə alsaq ki, Ermənistan və Dağlıq Qarabağ separatçı rejiminin rəhbərliyi narkotik ticarəti birbaşa himayə edirdilər, onda bu marşrutların həqiqət olması ehtimalı daha böyükdür.

Ermənistanın region üçün yaratdığı bu təhlükə bu gün İran-Azərbaycan münasibətləri müstəvisində yenidən gündəmə gəlib. Azərbaycan Prezidenti MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında etdiyi çıxışında İran-Ermənistan əlaqələrində narkotik biznesinin rolu və regiona, xüsusilə də Azərbaycana vurulan zərərdən söz açıb.

■ **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquqşünas Çingiz Qənizadə hafta.az-a şərhində bildirib ki, Qarabağın İran-Ermənistan üçün narkotranzit yoluna çevrilməsi dəfələrlə sübut olunub. Onun fikrincə, bu məsələnin məhz Prezident səviyyəsində səslənməsi artıq dünya ictimaiyyəti üçün mübahisəli ola bilməz.**

"Cənab Prezident oktyabrın 15-də Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında qısa zaman kəsiyində həm iclasada iştirak edən MDB dövlət başçılarına məlumat verdi, həm də Ermənistanı törətdiyi cinayətləri konkret faktlarala bir daha qeyd etdi. Eyni zamanda Ermənistanın havadarlarına, dünya ictimaiyyətinə mesaj verdi ki, bu gün Ermənistanın arxasında duran və durmağa çalışan dövlətlər, o cümlədən onlardan biri olan İran hansı cinayətləri törədiblər. Prezident 30 ilə yaxın işğal altında qalan ərazilərimizdəki vətəndaşlara aid olan mülkiyyətlərin və dövlət ərazi binalarının kərpiclərinin, daşlarının hissə-hisə çıxardılaraq Ermənistan və İranda satılmasını xatırlatdı. Eyni zamanda qeyd etdi ki, 60 min hektar ərazidə meşə genafondumuz məhv edilib, ağaclar kəsilərək yenə də İranda və Ermənistanda satılmışdır. O, eləcə də dünyada ən ağır cinayətlərdən hesab olunan narkotik qaçaqmalçılığı ilə bağlı bir neçə faktları göstərdi. Yüksək səviyyədə qeyd edildi ki, İran işğal altında olan dövrdə Azərbaycan ərazisi olan Cəbrayıl vasitəsilə keçmiş Dağlıq Qarabağ ərazisinə girərək ordan Ermənistana keçən narkotrafik marşrutu yaratmışdı.

Ermənilər bu yol vasitəsilə İrandan Azərbaycanın işğal olunmuş ərazilərindən keçərək Ermənistana, ordan da Avropa və digər ölkələrə narkotik daşımaları ilə məşğul olublar. Burada cənab Prezident həm İranın bu işlə məşğul olan məsul şəxslərini və dgər qanunsuz ticarətlə məşğul olan şəxsləri günahlandırır. Eyni zamanda Ermənistanın o vaxtkı siyasi hakimiyyətini və təbii ki, buna şərait yaradan Dağlıq Qarabağdakı separatçı rejimin rəhbərlərini ittiham etməklə dünya ictimaiyyətinə və MDB dövlətlərinə çatdırdı ki, bu şəxlər əslində işğal olunmuş ərazilərimizdən narkotrafik bir xətt yaradaraq qanunsuz biznes fəaliyyəti və varlanmaqla məşğul olublar". Ç.Qənizadə həmin tədbirdə Ermənistan baş naziri Paşinyanın Azərbaycan prezidentinin dediklərini susaraq qarşıladığını qeyd edib. Onun sözlərinə görə, Paşinyanın buna qarşı faktları var idisə ortaya fakt qoya bilərdi, amma bunu edə bilmədi. Paşinyan çıxışı zamanı Zəngəzur dəhlizinə razılıq verdiyini və bizimlə dəmir yolu və avtomobil yolu kommunikasiyaların açılmasına, delimitasiyaya, sülh sazişinə başlamağa hazır olduqlarını qeyd etdi.

Ç.Qənizadə bildirib ki, narkotik maddələrin daşınması, işğal altında olan ərazilərimizin hissə-hissə sökülərək Ermənistan və İranda satılması, əslində Sarkisyan və Köçəryan hakimiyyəti dövrlərinə təsadüf edir. O hesab edir ki, Paşinyanın susqunluğu bununla bağlı idi.

Hüquqşünas bildirir ki, oradan nə qədər narkotik vasitələrin daşındığını demək çətindir. Cənab Prezident özü də qeyd etdi ki, biz sərhədləri bağladıqdan sonra saxlanılmış narkotiklərin qanunsuz dövriyyəsi bizim tərəfimizdən tutulanların nisbətində iki dəfə artmışdı. Faktlar onu göstərir ki, mütəmadi olaraq bu yoldan istifadə etməklə qanunsuz biznes fəaliyyəti ilə məşğul olublar və Ermənistan və İran bu siyasətindən əl çəkməlidir: "Dünyada ən böyük biznes fəaliyyətlərindən biri narkotik və silah ticarətidir. Dünya narkotik ticarətinə qaşı birləşərsə bu problem həllini tapa bilər. Uzun illər cənab Prezident deyir və bu gün bunu sübut edirsə, niyə dünya dövlətləri susur? İran Amerikanın təşəbbüsü ilə 30 ildir sanksiya altındadır, amma hətta Amerika da buna susur. Bu, dünyanın beynəlxalq hüquqa hörmətsizliyindən başqa bir şey deyil".

> *Narkotik maddələrin daşınması, işğal altında olan ərazilərimizin hissə-hissə sökülərək Ermənistan və İranda satılması, əslində Sarkisyan və Köçəryan hakimiyyəti dövrlərinə təsadüf edir...*

> *Biz əvvəlcə xahiş edirdik, indi isə tələbimiz budur ki, İran ərazi bütövlüyümüzə hörmətlə yanaşıb separatizmi dəstəkləməsin, İran bölgədə sülh platformasının kökündə dayanacaq Zəngəzur dəhlizindən qorxmasın...*

> *Daim Ermənistanı müdafiə edən Qərb dövlətləri, Avropa və Amerika bilməlidir ki, onların bazarlarında satılan, gənclərinin zəhərlənməsində Ermənistan-İran əməkdaşlığı misilsizdir...*

■ **Milli Məclisin deputatı Bəhruz Məhərrəmov hafta.az-a açıqlamasında İranın işğalda olan Azərbaycan ərazilərindən narkotranzit kimi istifadə etməsinə, Prezident İlham Əliyevin MDB-nin Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı Azərbaycan-İran münasibətlərinə dair açıqladığı məsələlər kontekstində yanaşıb.** Deputat bildirir ki, heç kim o qənaətə gəlməməlidir ki, biz İranı hədəfə almışıq. "Əksinə, bu gün bizim bir təmənnamız var ki, bütün qonşularımızla normal mehriban bir mühitdə yaşayaq və birlikdə inkişaf edək. İrandan da təmənnamız bu olar ki, öz konstitusiyasının 152-ci və 154-cü maddələrindəki bütün dünya müsəlmanlarının haqlarının qorunması və dəstəklənməsi prinsiplərinə sadiq qalaraq Azərbaycana bu bu prizmadan yanaşsın. Təəssüf ki, rəsmi Tehran da, İranın idarəçiliyinin radikal kəsimi də hələlik arzu etdiyimiz mühitin yaradılmasına maraq göstərmir.

Bizim tələbimiz nədir? Biz əvvəlcə xahiş edirdik, indi isə tələbimiz budur ki, İran ərazi bütövlüyümüzə hörmətlə yanaşıb separatizmi dəstəkləməsin, İran bölgədə sülh platformasının kökündə dayanacaq Zəngəzur dəhlizindən qorxmasın. İran öz dövlət ideologiyasına, İslam dəyərlərinə sadiq qalaraq məsciddə donuz saxlayıb müsəlmanları təhqir edilməsi, dini abidələrin dağıdılması faktlarına susmasın, münasibət bildirisin". B.Məhərrəmov bildirir ki, 30 il müddətində İran Ermənistanla əlaqəyə girərək işğal altında olan yaşayış məkənlərimizi söküb apararaq viranə qoyub, 60 min hektardan çox meşəmizin məhvinə rəvac verib, Şuşada məscidimizi mənəvi terrora məruz qoyub fars abidəsinə çevirib, 30 il müddətində Ermənistan İranla əlbir olaraq Azərbaycanın o vaxt işğal altındakı ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib. Deputat hesab edir ki, bütün bunlar dinimizdə də dünyəvi hüquqda da yol verilməyən hallardır.

"Təbii ki, bu məsələlər də səngiyəcək, Azərbaycan istənilən halda bu prosesdən qalib kimi çıxıb istər kommunikasiyaların açılması, istər bölgənin əməkdaşlıq mühitinə çevrilməsi kimi mütərəqqi və taleyüklü məqsədlərə nail olacaq. Sadəcə İran elə etməlidir ki, bir il əvvəl olduğu kimi, bölgədə ikinci dəfə proseslərdən, oyundan kənarda qalmasın. İranın regionda nüfuzunu qorumaq üçün üçüncü şansı olmayacaq. Əminliklə deyirəm ki, proseslərin bu cür inkişafından sonra, əgər seçim qarşısında qalsa Ermənistan özü də İrandan üz çevirib Türkiyə və Azərbaycanla əməkdaşlığa üstünlük verəcək".

■ **Politoloq Əli Mustafa hafta.az-a şərhində bildirib ki, Qarabağ münaqişəsinin həlli əslində bir çox qaranlıq məqamları da aydınlatdı. O, hesab edir ki, ən mühüm məqamlardan biri ondan ibarətdir ki, dünya birliyi İran-Ermənistan arasında Qarabağ üzərindən həyata keçirilən başqa cinayətlərin də olduğunu bildi. Politoloq qeyd edir ki, Azərbaycanın işğalda olan Cəbrayıl, Füzuli rayonları üzərindən böyük miqdarda narkotik qaçaqmalçılığının reallaşması baş verib.**

"Burda əsas daşıyıcı İran tərəfidir. İranın İnqilab Keşikçiləri Korpusunun maliyyələşməsi nəzərdə tutulur. Bu korpus İranın əsas güc strukturlarından biridir. İran rejiminin daha çox güvəndiyi, etibar etdiyi bir ordu olduğuna görə, onu yüksək səviyyədə saxlamağa çalışır. Ordu 150 mindən artıqdır. Əlbəttə, bu qüvvənin də maliyyə mənbəyində narkotikadan istifadə olunub. Məlumat, artıq dünyanın bir çox informasiya şəbəkələrində yayılır. Bizdə olan məlumatlar ondan ibarətdir ki, cinayətkar erməni-İran əməkdaşlığının son vaxtlar Azərbaycana qarşı sərgilədiyi münasbət heç də təsadüfi deyil. 30 il müddətində bu yol üzərindən narkotika daşınıb. Yəqin ki, burada söhbət milyardlarla dollarlıq dövriyyədən gedir". Ə.Mustafa bildirir ki, İran narkotik ticarəti sahəsində dünya birliyinin ona qoyduğu embarqonu aşmaqda, qanunsuz əməllər törətməklə, bir sıra müsəlman ölkələrində terroru maliyələşdirməkdə istifadə edib. Ermənistandakı mövcud rejim uzun illər bu cinayətkar şəbəkənin tərkibində olub. Ermənistan üzərindən narkotikin Avropa və digər ölkələrə çıxarılması prosesi baş verib.

"Aydın məsələdir ki, bu işdə Köçəryan, Sarkisyan hakimiyyəti də böyük qazanclar əldə edib. Daim Ermənistanı müdafiə edən Qərb dövlətləri, Avropa və Amerika bilməlidir ki, onların bazarlarında satılan, gənclərinin zəhərlənməsində Ermənistan-İran əməkdaşlığı misilsizdir. Bu narkotika biznesinə sərt münasibət bildirməlidir. Hər halda Azərbaycan özünün mövqeyini bəyan edib. Dünya birliyi Azərbycanın yanında olmalıdır. Azərbaycanın ərazi bütövlüyünün bərpası, regionda cinayətkar fəaliyyəti əngəlləyən bir element kimi qəbul etməlidir. Bu gün Qərbdən, Avropadan İrana qarşı olan sanksiyaya Ermənistan da qatılmalıdır".

***Tahirə***

## Müsahib

***Uzun müddətdir xalqımızın qanayan yarası olan Qarabağ münaqişəsi 44 gün sürən Vətən müharibəsində qazandığımız şərəfli qələbəylə başa çatdı. Düzdür, 3 min övladımız şəhid oldu, amma azadlıq şəhid vermədən əldə olunmur. Gəl ki, cəmi bir ildir Qarabağa gətirdiyimiz azadlığı bizə çox görən, bundan qeyzlənən, acığa düşüb torpaqlarımıza qarşı az qala "səlib yürüşünə" çıxan üzdə dost, əslində isə məkrli düşmənlərimiz durmadan üstümüzə gəlməkdədirlər. Hər halda, Azərbaycan qalib ölkə olaraq işğaldan azad etdiyi bərəkətli, amma barı-bəhrəsi 30 il ərzində mənfur Ermənistan və himayədarları tərəfindən sovrulan, daşı-daşüstə qalanan və əslində, daşı da sökülüb-aparılan Qarabağ bölgəsində tikinti-quruculuq işlərinə başlayıb - yollar çəkir, infrastruktur yaradır, torpaqları əkir, şəhərlər, qəsəbələr salır və sair. Özü də torpaqlarımızı azad edərkən aşkar və dolayısıyla yanımızda olan dost ölkələrlə birlikdə.***

# "İran Azərbaycanın müttəfiqləri ilə düşmənçilik edir"



**Anatoli Pinçuk,**
Şərqi Avropada Təhlükəsizlik İnstitutunun İdarə Heyətinin sədri

Hə, dost ölkələrdən biri də Ukraynadır - Sovet illərində Azərbaycanla bərabər əsarətdə qalan, azadlığını əldə etdikdən sonra eynilə bizim kimi, torpaqlarını itirən, yüzlərlə, minlərlə övladını vətən uğrunda şəhid verən bir ölkə, Vətən müharibəsində xalqımıza və ordumuza mənəvi dəstək verən bir xalq.

**Odur ki, bu dəfə Qarabağ zəfərindən sonra bölgəmizdə yaranan vəziyyəti elə bu dost ölkədən olan siyasət uzmanı, Şərqi Avropada Təhlükəsizlik İnstitutunun İdarə Heyətinin sədri Anatoli Pinçukla müzakirə etdik. Gəlin müsahibəni birlikdə oxuyaq:**

- Azərbaycan Ordusu Qarabağ münaqişəsini həll etdi demək düzgün olmazdı. Məncə, Azərbaycan Ordusu işğal altındakı Qarabağın böyük hissəsinə nəzarəti bərpa etdi fikri daha düzgündür. Mən şəxsən istərdim ki, Ukrayna, Gürcüstan və Moldova da səylərini koordinasiya edərək Rusiya Federasiyasının nəzarətsiz və əslində işğal etdiyi əraziləri eyni şəkildə geri qaytarsınlar. Amma bunun üçün bu ölkələrin hərbi blokunun əhəmiyyətli dərəcədə gücləndirilməsi tələb olunur. Üstəlik, bu ordularda islahatların aparılması və yenidən silahlanma sahəsində Azərbaycanın təcrübəsindən istifadə etmələri vacibdir.

***- Bu gün Qarabağda artıq tikinti-quruculuq işlərinə start verilib, insanların geridönüşünə lap az qalır. Yəqin bilirsiniz, quruculuq işlərində ancaq dost ölkələr iştirak edir. O cümlədən, Ukraynaya da çağırış olunub ki, burada rol ala bilər. Təbii ki, bu da bəzi üzdə dost olan gizli düşmənlərimizi qəzəbləndirib...***

- Azərbaycanın bu məsələdə yürütdüyü siyasət tamamilə məntiqəuyğundur. Dar günündə yanında olanlarla iş görür.

***- Heç kimə sirr deyil ki, 30 illik münaqişənin baiskarı, şübhəsiz, İrəvana dəstək verib arxasında dayanan Rusiya idi və bir il öncə müharibə yolu ilə torpaqların geri qaytarılmasına dəstək verən də, hazırda 10 maddəlik sülh sazişinin detallarının yerinə yetirilməsinə çalışan da elə həmin Rusiyadır. Sizcə nə baş verir, Moskva niyə 30 ildən sonra mövqeyini belə dəyişdi?***

- Əslində, Moskva heç nəyi dəyişməyib. Kreml sadəcə həmin an Ermənistan tərəfdən münaqişəyə qoşulmağa hazır deyildi. Zaman və tələblər isə sürətlə dəyişir. Bu səbəbdən də bölgədə təsir vasitələrini qorumaq üçün vasitəçilik xidmətlərini təklif etdi. Düşünürəm ki, Azərbaycan bu xidmətləri qəbul etməməliydi, daha yaxşı vasitəçilik xidmətləri tapıla bilərdi.

***- Zəngəzur dəhlizi yaradılsa, Türkiyə və Avropa Azərbaycan üzərindən Xəzərə, oradan da Orta Asiyaya birbaşa və qısa yol əldə edəcək. Rusiya türk dünyasının bütövləşməsinə, sizcə nə əcəb razılıq verdi?***

- Bu fikri bir az dəqiqləşdirsək, Rusiya heç kəsi birləşdirməyə razılıq verməyib. Zəngəzur dəhlizinin yaradılması sadəcə, münaqişənin həlli ilə bağlı üçtərəfli razılaşmanın bir hissəsi idi. Bu təklifi Rusiya verməyib. Layihənin əsas ideoloqu və lobbiçisi Azərbaycan prezidenti İlham Əliyevdir.

> *Layihənin əsas ideoloqu və lobbiçisi Azərbaycan prezidenti İlham Əliyevdir*

***- İran Zəngəzur dəhlizinə qarşı çıxır. Maraqlıdır, müsəlman ölkəsi olan İran niyə Azərbaycanın uğurlarına sevinmir, əksinə, onu hər vəchlə baltalamağa çalışır?***

- İran Azərbaycanın yeni strateji müttəfiqləri olan İsrail və Türkiyə ilə düşmənçilik edir və Azərbaycanı bu ölkələrdən uzaqlaşdırmaq istəyir. Bu günlərdə İran ordusu Azərbaycanla sərhəddə hərbi təlimlər keçirib. Məhz həmin təlimlər daha çox Azərbaycan rəhbərliyinə xəbərdarlıq və ya psixoloji təzyiq kimi qiymətləndirilməlidir.

***- Sizin ölkəniz də ərazi bütövlüyünü müvəqqəti olaraq itirmiş vəziyyətdədir. Krım ilhaq edilib, Donbas və Luqansk da de-fakto işğal altındadır. Qarabağı azadermə modeli Kiyev üçün örnək ola bilərmi? Bəlkə Krımda, Donbas-Luqansk bölgəsində, hətta Gürcüstandakı etnik münaqişələrdə tərəf birbaşa Rusiya olduğu üçün hərbi yol bir az çətindir?***

- Bəli, işğal olunmuş əraziləri hərbi yolla azad etmək cəhdi Rusiya Federasiyasından qaçılmaz hərbi təcriddir. Mən belə bir ssenarini qeyri-mümkün hesab etmirəm, amma indiki vaxtda bu real görünmür.

***- Ümumiyyətlə, Krım və Donbas problemlərinin həllini necə görürsünüz? Bu əraziləri geri qaytarmaq üçün Kiyev nələr etməlidir? Hə, bu münaqişələrin həlli üçün hərb variantı seçilərsə, ABŞ və Qərb Kiyevin yanında yer alacaqmı? Axı Qərb Ukraynaya torpaqlarını azad etmək üçün əməliyyatlara başlayacağı təqdirdə dəstək verəcəyini vəd edir...***

- Qərb yoxdur, fərqli mövqeli Qərb ölkələri var. Məncə bu ölkələrin də heç biri, müəyyən mənada Skandinaviya istisna olmaqla, Ukraynaya müasir və ölümcül silah vermək istəmir. Niyə, çünki hər biri öz geosiyasi maraqlarına uyğun hərəkət edir. Bu məsələdə xəyal qurmaq olmaz, dövlətlərin də maraqlarını anlamalıyıq.

***- Qarabağ münaqişəsinin həlli formulundan çıxış edərək, məsələn, şəxsən sizin də iştirakınızla Ukraynadan, üç Qafqaz respublikasından, Türkiyədən və digər bölgə ölkələrindən hərbi-siyasi mütəxəssislərin iştirakı ilə beynəlxalq konfrans keçirməklə dondurulmuş münaqişələri yenidən gündəmə gətirmək olmazmı? İndi dünyanın başı Əfqanıstana, Suriyaya, Yaxın Şərqin digər problemlərinə, Covid-19-a qarışıb, Ukrayna, Gürcüstan unudulub....***

- Bəlkə də belə bir konfransın keçirilməsinin bölgəmizdəki problemləri daha dərindən öyrənmək, dərk etmək üçün müsbət təsiri olardı. Bilirsiniz, artıq heç bir konfrans bu problemlərin həllinə kömək edə bilməyəcək...

***Vüsal Tağıbəyli***

# Hüquqi dövlət quruculuğunda Azərbaycan təcrübəsi

## Layihə

***Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra hüquqi dövlət quruculuğu prosesində ciddi uğurlara nail olunub desək, yəqin ki, yanılmarıq. İndiyədək həyata keçirilmiş islahatların nəticəsi olaraq artıq hüquqi dövlət quruculuğu prosesində cəmiyyətin hər bir üzvü iştirak edir. Qeyd edək ki, Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Onun rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkədə vətəndaş cəmiyyəti quruculuğunun hüquqi əsaslarını yaratdı.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Təbii ki, ölkəmizin əsas qanununun qəbul edilməsi, burada təməl demokratik prinsiplərin, o cümlədən, hakimiyyətlərin bölünməsi prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsi idi. Həmin illərdə ölkədə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə müdafiəsi üçün səmərəli, həmçinin çevik mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması gerçəkləşdirilən mütərəqqi islahatların mühüm istiqamətini təşkil edirdi. O dövrdə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilmişdi. Məsələn, hüquqi islahatların reallaşdırılması, qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradıldı. Bu komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquqi islahatların prioritetlərini müəyyənləşdirərək, sovet dövründən miras qalmış hüquq sistemini tamamilə dəyişdirdi. Daha sonra ulu öndərin təşəbbüsü ilə 1997-ci ildə bir sıra xarici ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" yeni qanun qəbul edildi. Həmin qanunun tətbiqi ilə bağlı müvafiq fərman imzalandı və ölkəmizdə məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin bərqərar edilməsi prosesinə başlanıldı. Köklü və genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək, 2000-ci ildən yeni, üçpilləli müstəqil məhkəmə sistemi yaradıldı.

Hazırda Ulu Öndərin yürütdüyü siyasətə sadiqlik nümayiş etdirən prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətin ali məqsədi də ölkənin hər bir vətəndaşı üçün layiqli həyat tərzinin təmin olunmasıdır. Bu gün ölkəmiz dünya birliyinin bərabər hüquqlu üzvü olaraq dinamik inkişaf edir. Azərbaycanın bu cür tərəqqisi onu nəinki siyasi, həmçinin iqtisadi və mədəni cəhətdən həm regional, həm də qlobal mərkəzə çevirir.

> *"Ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlər başqa dövlətlər üçün də nümunədir*



**Əliməmməd Nuriyev,** Konstitusiya Araşdırmaları Fondunun rəhbəri

Ekspertlər hesab edirlər ki, hüquqi dövlət quruculuğunda Azərbaycan təcrübəsi başqa dövlətlər üçün də nümunədir. Belə ki, son illərdə dövlət başçısı tərəfindən məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində aparılan islahatlar cəmiyyətin, eləcə də ictimai münasibətlərin inkişafında önəmli rol oynayıb. Bunun nəticəsində məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilib, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilib, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənib, insanların məhkəmələrə müraciət etmək imkanları xeyli asanlaşıb, infrastruktur tamamilə müasirləşdirilib. Həmçinin ölkəmizdə hakimliyə namizədlərin seçimi prosesi əsaslı şəkildə təkmilləşdirilərək, hakimlərin ən qabaqcıl və şəffaf üsullarla seçim qaydası müəyyən olunub. Ölkə başçısının 2018-ci ilin dekabrında təsdiq etdiyi "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üzrə Dövlət Proqramı", "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı sözügedən sahə üçün bir növ yol xəritəsinə çevrildi. Fərmanın icrası üzrə 40-dək yeni qanun layihəsi hazırlandı. Bundan başqa, dövlət başçısının məhkəmə fəaliyyətinin elektronlaşdırılması ilə bağlı imzaladığı 13 fevral 2014-cü il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında sərəncamla da böyük bir dövrün əsası qoyuldu. Vətəndaşlar məhkəməyə getmədən elektron müraciət etmək, proses barədə məlumatları elektron şəkildə almaq, məhkəmə proseslərinin videogörüntüsünə baxmaq imkanına malikdir. Ölkənin bütün məhkəmə sistemi vahid internet portalında birləşdirilib. Burada hər bir məhkəmə və hakim barədə ətraflı məlumatlar almaq, məhkəmə sənədlərinin nümunələrini əldə etmək, qəbul günləri və s. barədə ətraflı məlumat almaq mümkündür. Mühüm innovasiyalar sayılan "Mobil məhkəmə" və "Mobil etibarnamə" proqramları istifadəyə verilib. Vətəndaşlar təkcə nazirlik və bölgələrdə yox, həm də virtual şəkildə qəbul edilir. Təbii ki, bu istiqamətdə əldə olunan uğurlu nəticələr həm də infrastruktura bağlıdır. Dövlət başçısının tapşırığı ilə son illər ərzində məhkəmə infrastrukturunun müasirləşdirilməsi istiqamətində çox böyük işlər görülərək məhkəmələrdə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Nəticədə məhkəmələrdə "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, o cümlədən məhkəmə prosesi zamanı audio-video yazılışların aparılması, bütün məhkəmə iclaslarının protokollaşdırılması, elektron sənəd dövriyyəsinin tam tətbiqi ilə bağlı bütün zəruri infrastruktur yaradılıb.

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri, Ədliyyə Nazirliyi yanında İctimai Şuranın üzvü Əliməmməd Nuriyevin sözlərinə görə, indiyədək ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində kifayət qədər mütərəqqi islahatlar həyata keçirilib:** "Hüquqi dövlətin prinsipləri ölkəmizdə ilk olaraq müvafiq obyektiv hüquqa uyğun qanunvericilik sisteminin yaradılması, qanunvericilikdə nəzərdə tutulmuş qaydada insanların hüquq və azadlıqlarının təmin olunması ilə özünü göstərir. Demokratik dövlətlərin inkişaf təcrübəsi və ölkəmizin keçdiyi yol göstərir ki, vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. İnsan və vətəndaş hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyəti, nə də hüquqi dövlət formalaşdırmaq mümkündür. Cəmiyyətdə hüquqların təminatçısı dövlətdir. Dövlət bu hüquqları təmin etməklə özünün həm də qoruduğu əsas dəyərləri göstərir.

Azərbaycan da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu seçdiyindən insan və vətəndaş hüquqları və azadlıqları təmin edir. Bu gün ölkəmizdə hakimiyyətin qolları bir-birindən asılı olmadan Konstitusiya səlahiyyətlərindən istifadə etməklə fəaliyyət göstərir. Bütün normativ aktlar, qanunun aliliyi əsasında yaradılır və həyata keçirilir. Elə hüquqi dövlət anlayışı dövlət hakimiyyətinin Konstitusiya normalarına tabe olmaqla, ayrı-ayrı fərdlərin hüquqları dövlətin şəxsində qorunmalıdır. Hüquqi dövlət öz-özünə daimi norma və qaydaların kompleksini müəyyən dərəcədə məhdudlaşdırır. Bu istiqamətdə ölkəmizdə kifayət qədər mütərəqqi islahatlar aparılıb,məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilib, məhkəmə hakimiyyətinin müstəqilliyinə nail olunub, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənib".

### Yeri gəlmişkən...

**"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman məhkəmə sistemində növbəti islahatların aparılması və bu sahədə müasir texnologiyaların tətbiqinin vacibliyini bəyan etməklə yanaşı, məhkəmələr üçün ədalətlilik, qərəzsizlik, süründürməçiliyə yol verilməməsi, aşkarlıq, şəffaflıq kimi mühüm prinsiplərin hər zaman vacib və aktual olduğunu bir daha müəyyənləşdirib.**

Eyni zamanda, fərmanda məhkəmə icraatının səmərəliliyinin yüksəldilməsi, işlərə baxılmasının keyfiyyətinin artırılması, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Füzulinin azad edilməsi ilə yol şəbəkəsi nəzarətə götürüldü

## Aktual

***Azərbaycanın şanlı Ordusu 2020-ci il oktyabrın 17-də Füzuli şəhərini işğaldan azad etdi. Ordumuz 1993-cü il 23 avqust işğal tarixinin üstündən xətt çəkərək, 27 il düşmənin tapdağı altında olan qədim bölgəni tamamilə azad edib. Ümumilikdə, Füzulinin azad olunması hansı hərbi əhəmiyyətə malik idi? Hərbi ekspert Şair Ramaldanov hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycanın müharibə zamanı həyata keçirdiyi bütün əməliyyatlar müharibə planı əsasında mərkəzdən idarə olunurdu və Füzulinin də azad olunması məhz bu planın tərkib hissəsi idi.***

"Füzulinin azad edilməsinin bir neçə əhəmiyyəti var. Taktiki cəhətdən döyüşə təsir edən məsələ odur ki, Füzulinin ətrafındakı yol şəbəkəsi nəzarət altına alındı. Füzuli kimi böyük yaşayış məntəqəsi azad olundu.

Füzuli mühəndis-istehkamları ilə güclü müdafiə olunan yaşayış məntəqələrindən biri idi. Orada düşmənin xeyli texnikası məhv edildi və qənimətlər götürüldü. Demək olar ki, Füzulinin azad olunması Xocavənd, Ağdam, Ağdərə kimi rayonlarda düşmən qüvvəsini mühasirəyə almaq üçün çox əlverişli ərazi idi. Füzuli həmin istiqamətlərdən hansısa qüvvələrin çəkilib cənub istiqamətinə yönəlməsinin qarşısını alan ərazi idi". Ş.Ramaldanov Füzulinin alınmasının bizim hərbçilər üçün mənəvi-psixoloji əhəmiyyət daşıdığını önə çəkib.



"Hər azad edilmiş ərazimiz, o cümlədən Füzulinin azad edilməsi döyüşçülərimizdə yüksək ruh yüksəkliyi yaradırdı. Düşmən isə öz silahını qoyub qaçır, planlı müqavimət göstərə bilmədiyi üçün fərarilik edirdi. Azərbaycan beynəlxalq siyasi arenada dünyaya göstərə bildi ki, öz müharibəsini uğurla aparır, müasir texnikanın tətbiqini tam şəkildə həyata keçirə bilir. Dünya hərbi ekspertləri Azərbaycanın bu müharibəsini 21-ci əsrin döyüşlərinə cavab verən müharibə kimi qiymətləndirir. Füzulinun azad edilməsi Şuşaya gedən istiqaməti daha da etibarlı elədi. Ona görə biz bu gün Şuşaya gedən yeni yolu Füzulidən başlayırıq. Füzulinin əhəmiyyəti böyükdür. Füzuli alınandan sonra digər əməliyyatlar daha sürətlə getdi və biz düşməni diz çökdürə bildik".

■ **Füzulinin işğaldan azad olunması avtomatik olaraq Qubadlı və Zəngilanın da azad edilməsi üçün böyük imkanlar açdı. Bu fikirləri hafta.az-a hərbi ekspert Üzeyir Cəfərov bildirib.** Onun sözlərinə görə, əsas əhəmiyyət Cəbrayıla verilmişdi və ardınca Füzulinin azad edilməsi həmin rayonların qısa zamanda nəzarətimizə keçməsi demək idi. "Ermənilər Araz boyunca uzun müddət davam gətirə bilməzdi. Bu istiqamətdə əsas yol Füzulidən keçirdi. Oranın relyefi elə idi ki, silah, yanacaq, sürtkü materialları, ərzaq Füzulinin ərazisindən ermənilərə gedirdi.

> *"Füzuli mühəndis-istehkamları ilə güclü müdafiə olunan yaşayış məntəqələrindən biri idi*

Füzuli azad olunubsa, düşmən məcbur qalaraq ya İran ərazisindən hansısa çarə qılmalıdır, ya da orada məhv olacaqdı". Ekspert qeyd edir ki, Hadrut, Tuğ və strateji əhəmiyyətli digər ərazilərin və Füzulinin azad edilməsi Şuşaya yaxınlaşmaq deməkdir. "Ümumiyyətlə, Füzuli böyük rayondur. Qubadlı və Zəngilan ərazisinə görə Füzulidən balacadır. Düşmən Füzulidə qarnizon yaratmışdı, ətrafları bununla təmin edirdi. Füzuli işğaldan azad olunandan sonra o imkanları olmayacaqdı. Bax Füzulinin azad olunmasının ən mühüm əhəmiyyəti bu idi".

✍ **Tahirə**

## XƏBƏRİNİZ OLSUN...



■ Rusiyada oktyabrın 30-dan noyabrın 7-dək qeyri-iş günü elan edilib. Bu barədə Rusiya Prezidenti Vladimir Putin ölkədə koronavirusla bağlı vəziyyətə dair hökumətin onlayn formatda iclasında bildirib. Putin pandemiyaya görə əmək haqqı saxlanılmaqla bir həftə qeyri-iş günü elan edilməsi təklifini dəstəkləyib.

■ "Koronavirusun uşaqlar arasında epidemiya halını aldığını demək olmaz". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib. O bildirib ki, indi məktəblərin açılması ilə bağlı uşaqlar arasına yoluxma arta bilər: "Yoluxma sayı, xüsusilə uşaqların koronavirusa yoluxması müəyyən problemlər yaşatsa da, uşaqlar böyüklərə nisbətən xəstəliyi yüngül keçirirlər".

■ "Rusiya silah və hərbi texnika ixracının həcminin qoruyub saxlayacaq". Bunu Rusiya Baş nazirinin müavini Yuri Borisov Federasiya Şurasında çıxışında bildirib. Onun sözlərinə görə, Rusiyanın hərbi məhsul ixracının həcmi hər il sabit səviyyədə - 15 milyard dollar həcmində qalır.



■ "Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında yeni şöbə yaradılıb". Bunu YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib. T. Budaqov bildirib ki, Mərkəzi Aparatda ayrıca Gender məsələləri şöbəsi yaradılıb: "Hakim siyasi partiya olaraq, ölkə başçısının, partiya sədrinin tapşırıqlarına uyğun olaraq bu sahədə işləri davam etdirəcək".

■ Suriyanın Dəməşq şəhərində avtobus partladılıb. Partlayış nəticəsində avtobusda olan 14 hərbçi həlak olub, bir neçə nəfər yaralanıb. Partlayış Prezident körpüsünə mina qoyulması nəticəsində baş verib. Hadisənin terror aktı olduğu bildirilir. Ölənlər və yaralananlar Suriya Ordusunun hərbçiləridir.

■ Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili tibbi yardım göstərilməsinə razı olub. Vəkil Dito Sadzaqlişvili Mixail Saakaşvilinin açıq məktubunu yayımlayıb. "Həbsdə olduğum müddətdə heç bir halda qida qəbul etməyəcəm, ölümə belə hazıram. Eyni zamanda, sağlam düşüncə və iş qabiliyyətimi saxlamaq da istəyirəm. Buna görə də huşumun yerində olması üçün həkimlərin medikamentoz müdaxiləsinə razılıq verirəm", - deyə Saakaşvili bildirib.



■ Ötən il pandemiya ilə əlaqədar bal yarmarkasının keçirilməməsi arıçı sahibkarlara mənfi təsir edib. Bunu Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vüqar Hüseynov deyib. O bildirib ki, bal yarmarkasının keçirilməməsi nəticəsində arıçılar məhsullarını satmaqda çətinlik çəkiblər.

■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 303 yeni yoluxma faktı qeydə alınıb, 1 010 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 16 nəfər vəfat edib.

Siyasi baxış

# İranın Bakıdan "tələbi"

**_İranla Azərbaycan arasındakı gərginliyin əsas səbəbi ötən payızda Azərbaycanla Ermənistan arasında 44 günlük müharibədən sonra bölgədəki geosiyasi vəziyyətin dəyişməsidir. Müharibənin nəticəsi olaraq Azərbaycan zəfər qazandı və qanuni olaraq beynəlxalq hüquq baxımından həmişə ona məxsus olan ərazinin böyük hissəsini azad etdi. Hafta.az xəbər verir ki, bu fikirləri rusiyalı politoloq, iranşünas Vladimir Sajin deyib. Onun sözlərinə görə, beynəlxalq ictimaiyyət, həm də İran bu faktı heç vaxt inkar etməmişdir. Azərbaycan Cənubi Qafqazda siyasi və hərbi vəziyyəti dəyişdi. Bunu Türkiyənin siyasi və ideoloji dəstəyi ilə etdi:_**





"İyunun 15 -də Şuşada Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında danışıqlar aparıldı və nəticədə iki dövlətin strateji birliyini əks etdirən - Şuşa Bəyannaməsi - iki tərəf üçün vacib sənəd imzalandı. İndi Bakı və Ankara iki hərbi və siyasi müttəfiqdir. Prezident Əliyevin o vaxt Şuşada qeyd etdiyi kimi, əvvəllər Azərbaycan və Türkiyə de-fakto müttəfiq idilərsə, bəyannamənin imzalanmasından sonra bu hal de -yure halı aldı. Bu sənəd, həmçinin, Qarabağ müharibəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9-10 Noyabr 2020-ci il tarixli Dağlıq Qarabağ nizamlanmasına dair üçtərəfli bəyannaməni imzalaması da bölgədəki güc balansını əhəmiyyətli dərəcədə dəyişdi.

Türkiyə tarixən İranın bölgədəki əsas rəqibi olub. Və Cənubi Qafqaz və Yaxın Şərq bölgəsindəki mövqelərinin ən ciddi şəkildə möhkəmlənməsi İranın maraqlarına uyğun gələ bilməz. Tehran 44 günlük müharibə və intensivləşən Qarabağ prosesi ilə əlaqədar olaraq son nəticədə çox şey itirdi. Tehranın Qafqaz siyasəti sözün əsl mənasında fiaskoya uğradı. Müharibə zamanı İran Azərbaycanla Ermənistan arasındakı münaqişənin həllində vasitəçi olmağa cəhd etdi və müəyyən fəallıq göstərdi. Amma sonda, məlum səbəblərdən, Rusiya həll məsələsini öz əlinə aldı. Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən üçtərəfli Bəyannamənin imzalanması ilə İran mahiyyət etibarilə geri çəkildi. Təbii ki, baş verənlər İranın qüruruna zərbə oldu. Uzun müddət Fars İmperiyası təkcə Güney deyil, bütün Qafqaza nəzarət edirdi və birdən -birə indi İran kənara çəkilir və ümumiyyətlə bu ölkənin - həm siyasi, həm ideoloji, həm də iqtisadi - təsiri əhəmiyyətli dərəcədə azalır.

İran hadisənin iqtisadi aspektindən də razı deyil. Birincisi, indi Bakı İrandan Ermənistana gedən marşrutlara nəzarət edir. İkincisi və bu çox vacib bir məqamdır, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatına görə, Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizi açılmalıdır. Belə bir dəhlizin yaradılması təkcə Azərbaycan üçün deyil, Türkiyə üçün də vacibdir. Bu yolla Azərbaycanla quru əlaqəsi olacaq, Xəzər dənizinə, sonra isə Xəzər vasitəsilə Mərkəzi Asiya respublikalarına çıxacaq. Bunlar hamısı türkdilli ölkələrdir (Tacikistan istisna olmaqla). Və Türkiyənin bu işdəki ambisiyaları da İrandan narahatdır".

Ekspert İranın birbaşa olaraq niyə Türkiyəni yox, Azərbaycanı hədəf seçməsinə də toxunub:



**Vladimir Sajin,**
rusiyalı politoloq, iranşünas

"Türkiyə İranın bütün Yaxın Şərq regionunda ənənəvi rəqibidir. Türkiyə ciddi bir gücdür, NATO üzvüdür, Şimali Atlantika İttifaqında ABŞ -dan sonra ikinci ən güclü ordusu olan bir dövlətdir. Bu səbəbdən Tehran birbaşa Türkiyəni günahlandırmaqdan qorxur. Və bütün ittihamları Azərbaycana qarşı yönəltməklə, Azərbaycan üzərindən Türkiyəyə mesaj göndərmək daha asandır. Bundan başqa, İranla Türkiyə arasında Tehranın da korlamaq istəmədiyi iqtisadi əlaqələr var.

İranın Bakı ilə bağlı iddiaları toplandığı üçün hədəf olaraq Azərbaycan seçildi. Tehran, İranın Azərbaycandakı şiə ekspansiyasında uğur qazana bilməməsinə qəzəblənir və Azərbaycanla İsrail arasındakı ipi də qıra bilmədi. Bu, onun tam uğursuzluğudur. Bütün bunlar birlikdə İranı ciddi şəkildə qıcıqlandırır. Buna görə də hədəf olaraq Azərbaycan seçildi.

## İsraildən silah almağı dayandır

Fakt budur ki, 70-ci illərin sonlarında İranda İslam İnqilabının qələbəsindən sonra Tehran inqilabı ixrac etmək ideyasını həyata keçirəcəyinə ümid edirdi və ilk növbədə bunu Azərbaycanda etmək planlaşdırılırdı. Ancaq İranın planları uğursuz oldu. Məlumdur ki, müxtəlif mənbələrə görə İranda 82 milyon əhalidən 18-35 milyon etnik azərbaycanlı yaşayır. Bu, əhalinin kifayət qədər ciddi bir faizidir. Bildiyiniz kimi, İslamı qəbul edən azərbaycanlılar, o cümlədən Azərbaycanın özündə əsasən şiələrdir. Tehran inanırdı ki, Azərbaycanda İslam inqilabını ixrac etməyin heç bir problemi olmayacaq. Bu istiqamətdə xeyli işlər görülmüşdür. İslam inqilabının ixracının uğursuz olmasının səbəbi Azərbaycan əhalisinin milli mentalitetinin dünyəvi olması, dünyəvi bir dövlət olmasıdır. İranlıların Azərbaycan əhalisinə tətbiq etməyi gözlədikləri dəyərlər Azərbaycan Respublikası xalqı tərəfindən qəbul edilməmişdir.

Azərbaycanla Türkiyə arasında yaxınlaşma oldu. Azərbaycanlılar və türklər eyni etnik və dil ailəsinə mənsubdurlar və onları "Bir millət - iki dövlət" şüarı birləşdirir. Beləliklə, etno-milli faktorun İranın güvəndiyi dini faktordan daha güclü olduğu ortaya çıxdı. İranın burada da məğlub olduğu aydındır.

Bundan başqa, son vaxtlar Tehranı Bakının beynəlxalq aləmdə apardığı müstəqil siyasət çox qıcıqlandırır. Xüsusilə, Azərbaycanın İsraillə əla münasibətləri var. İsrail ABŞ -la yanaşı, İranın düşmənidir. Azərbaycanda bir çox İsrail şirkəti fəaliyyət göstərir. Azərbaycanla İsrail arasında ticarət dövriyyəsi kifayət qədər yüksəkdir. Bakı ilə Tehran arasındakı ticarətdən qat-qat yüksəkdir.

Bu, bir göstəricidir. İsrail və Azərbaycanın 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərindən hərbi-texniki əməkdaşlıq çərçivəsində yaxından qarşılıqlı əlaqədə olmasından belə danışmıram. Bir çox cəhətdən, 44 günlük müharibədə Azərbaycanın qələbəsində önəmli rolu ən müasir İsrail silahları ilə təminat da oynadı və bu, İranı qəzəbləndirir. Tehran Bakıdan İsraildən silah tədarükünü azaltmağı və hətta dayandırmağı tələb edir. Əlbəttə ki, bu mümkün deyil. Prezident Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan xarici siyasətini özü həyata keçirir və lazım bildiyi dövlətlərlə əməkdaşlıq edir və digər ölkələrin, bu halda İranın təzyiqi altında əyilməyəcək".

✍ ***Azad***

---

Müsahib

*"Həftə içi" qəzetinin və hafta.az saytının müsahibi yazıçı, dramaturq Seyran Səxavətdir. Onunla zəfərimizin ildönümündən, ədəbiyyatdan, aktual məsələlərdən danışdıq:*



**Seyran Səxavət,**
yazıçı, dramaturq

# Ermənilərlə heç vaxt birgə yaşamaram...

***- Seyran müəllim, bu gün Azərbaycan Ordusunun Qarabağda dastan yazdığı tarixi günlərin qürurunu yaşayırıq. Ötən ilin bu günləri doğulub, boya-başa çatdığınız Füzulinin azadlığı uğrunda şiddətli döyüşlər gedirdi və oktyabrın 17-də Füzuli şəhəri azadlığına qovuşdu. Təxminən bir il əvvələ qayıtsaq, 44 günlük Vətən Müharibəsi Seyran Səxavət yaddaşında hansı izləri buraxdı?***

- Əslində, bu barədə çox danışmışam. Mən bu gün də sevinməklə məşğulam. Məhz 44 günlük Vətən Müharibəsi dövründə 30 il yol gələn xoş xəbərləri almışıq. 30 il o torpaqların həsrətində olmuşuq. 10-12 il bundan əvvəl saytlar, qəzetlər deyirdilər ki, Azərbaycan yazıçıları Qarabağdan az yazırlar. Hələ o vaxt demişdim ki, Qarabağ haqqında ən yaxşı əsəri Ali Baş Komandan və Azərbaycan Ordusu yazmalıdır. Şeir, poema, romanla Qarabağı almaq olmaz. Ali Baş Komandan, Azərbaycan Ordusu da sağ olsun, möhtəşəm bir əsər yazdılar. Özü də son 200 ilin ən vacib əsərini qələmə aldılar. Hesab edirəm ki, bütün müsabiqələrin də qalibi oldular. Biz birliyimiz sayəsində o torpaqlara qayıtdıq. Bilirsiniz, 30 ilin həsrətin, dərdin bir ilə sevinib qurtarmaq olmur. Gərginlik çox yüksəkdir, ona görə, adam o sevinci yavaş-yavaş yaşayır.

***- Bu gün Azərbaycanın Qarabağda əldə etdiyi qələbəsini həzm edə bilməyən, bu qələbəyə qısqanclıqla yanaşan kifayət qədər qüvvələr var. Cənub qonşumuz İran isə öz davranışlarında bunu açıq şəkildə nümayiş etdirir. Sizcə, İran Azərbaycanın Qarabağ zəfərini niyə həzm edə bilmir?***

- Belə bir müqayisə edək. Adam bir az çox yeyəndə, yaxud orqanizminə uyğun olmayan qida qəbul edəndə onu həzm edə və səhərə kimi yata bilmir. Bu, hamının başına gələn bir şeydir. Axırda o adam əlini soxur xirtdəyinə qaytarır, ondan sonra rahatlaşır. Qaytara bilməyəndə də gecə səhərə kimi o tərəf-bu tərəfə çevrilir. İndi bizim Cənub qonşumuz İran o gündədir. Qələbəmiz onun mənəvi mədəsi üçün deyil. Ona görə də həzm edə bilmir, İranın mədəsi qıcqırır, ödü ağzına gəlir.

Onu həzm eləsə də, artıq yeyib, bu böyük qələbə olub. İran bu qələbəni həzm etsə də, etməsə də özü bilər. Onlar bir qonşu kimi, İslam dövləti kimi heç vaxt Azərbaycanın qələbəsinə sevinməyəcək. Hər şeyi öz adı ilə demək lazımdır. Səbəb də bəllidir. O da ondan ibarətdir ki, Azərbaycan gücləndikcə, Azərbaycanın beynəlxalq miqyasda nüfuzu artdıqca, var qüvvəsi ilə ayaq üstündə durduqca İran elə başa düşür ki, onlara təhlükədir. Təhlükə də nədən ibarətdir? Orada 40 milyondan artıq azərbaycanlı yaşayır. Düzdür, İran 20 milyon deyir, amma gözlərinin içinə qədər yalan deyir. Sabah Cənubi Azərbaycanla şimal Azərbaycan haqq olaraq birləşmək istəyərlər. İranın bütün qarnının ağrısı, azar-bezarı hamısı bundan ibarətdir.

> “
> *Əgər Tural Gəncəliyev doğrudan da bu fikirləri işlədibsə, günü bu gün deputatlıqdan istefa versin*

Biz bunların hamısını bilə-bilə, tariximizi bilə-bilə durub onlardan kişilik, mərdlik, mərdanəlik gözləyirik ki, bizi qələbə münasibətilə ürəkdən təbrik eləsinlər. Müharibə vaxtı onlar ermənilərə mənəvi, iqtisadi, hərbi hər cür yardımı göstərdi. Ermənilərin işğal etdiyi rayonların, kəndlərin çoxunu onlar söküb dağıdıblar, aparıb özlərinə ev tikiblər, nə bilim nə qələt ediblər. Yəni, İranın mövqeyi belədir, biz bunu birdəfəlik bilməliyik. Biz qonşularımızdan yarımadıq. Bir tərəfdən Cənub qonşular, digər tərəfdən o biriləri-bu biriləri, ermənilər və s. Qonşu baxımından uğursuz olmuşuq. Bütün bunların da acığına, hətta İrandan da başqa dövlətlər də var ki, Azərbaycanın qələbəsini həzm edə bilmirlər. Sanki bir ovuc mıx udub hamısı qarınağrısına düşüblər. Bütün bunların da yeganə bir cavabı var: hamımız yumruq kimi birləşib bir olmalıyıq.Yumruğun da tərkibi elə dəmir olaraq qalmalıdır. Vəssalam.

***- Bu günlərdə Moskvada Bütün Rusiyanın Patriarxı Kirillin iştirakı ilə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin və bütün ermənilərin Katolikosu 2-ci Qaregin üçtərəfli görüşü keçirildi. Həmin görüşdə Kirill bildirib ki, Azərbaycan və Ermənistan xalqları üçün birlikdə yaşamaqdan başqa gələcək yoxdur. Seyran Səxavət ermənilərlə birgə yaşamağa hazırdırmı?***

- Xeyr, gərək düzünü deyəsən - heç vaxt. İndi bu fikri çox insanlar, müəyyən millət vəkilləri, dövlət məmurları da dillərinə gətirirlər, Kirillin dediklərini təkrar edirlər. Bunların hamısı boğazdanyuxarı deyilən sözlərdir.

Bilirsiniz, təkcə son 120 ili götürsək, onlar bu xalqa qarşı nələr ediblər. Mən həmişə deyirəm ki, bizim xalq böyük xalqdır, amma yaddaşında problem var. Kütləvi informasiya vasitələrimizin, siyasilərimizin, ziyalılarımızın bir borcu da uzaqbaşı hər 20-30 ildən bir bu xalqın yadına salmaq lazımdır ki, sən böyük bir xalqsan, özünü böyük xalq kimi apar. Müstəqillik dövrünə qədər ən çox oxuduğumuz mahnı bilirsiniz nə idi? Bilmirsinizsə, mən sizin yadınıza sala bilərəm.

**Kür - Araz - Ararat,**
**Gözəldir bu həyat.**
**Qardaş olub**
**Hayastan, Azərbaycan**

Ağıllı adamların bir misalı var. Mən başqa cür deyəcəm sizə. "Filankəslə qonşu ol, amma dəyənəyini əldən yerə qoyma", yəni, bunlar kimi etibarsız, şərəfsiz, alçaq, mənəviyyatsız, yaltaq toplum yer üzündə yoxdur. Sizə bir məqamı da xatırladım. Bu hadisələr təzə başlayanda bir avropalı gəlmişdi, Xankəndidəydi.

Bir erməni dizini qoydu yerə ki, həmin avropalının çəkməsinin bağını düzəltsin. Təsəvvür edirsinizmi, bunlar qadınlarından da, uşaqlarından da hər cür istifadə edirlər. Onlar üçün şərəf adlı şey yoxdur. Ona görə də Kirill özü üçün deyir. Elə təkcə Krasnodar vilayətində 1 milyona yaxın erməni var, getsinlər onlara muxtariyyət versinlər. Kirill kimdir ki, mənə yol göstərir? Bizdə də Kirillə bənzər adamlar var, amma dediklərinin hamısı yalandır. Xocalı faciəsini kim unuda bilər? Elə çox uzağa getməyək, ermənilər keçən il Gəncəni bombaladılar. O hadisədə bir uşağın baxışları var, həmin baxışları unudub erməni ilə bir yerdə yaşayan Azərbaycan türkü mənim üçün elə ermənidən də pisdir. Evim ayrı, qəmim ayrı, dəyənəyim həmişə əlimdə hazır, yumruğum da dəmir yumruq. Yolun azan kimi təpəsinə tarap bir yumruq. Yəni, bizim taleyimiz budur. Yoxsa mən təzədən onlarla qardaş ola, "Hayastan, Azərbaycan" mahnısını oxuya bilmərəm. O dövr getdi...

***- Bir neçə gün öncə Milli Məclisin Xankəndi seçki dairəsindən seçilmiş deputatı Tural Gəncəliyevin erməniəsilli Azərbaycan vətəndaşlarının Azərbaycan cəmiyyətinə reinteqrasiyasına töhfə vermək üçün erməni dili kursları təşkil edilməsi ilə bağlı tviti sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Gəncəliyevin paylaşımında "Biz erməni dilini öyrənirik, biz erməni dilində danışırıq, biz erməni dilini öyrədirik", - deyə cümlə də qeyd olunub. Müzakirələrdə iştirak edənlər deputatın fikirlərini birmənalı qarşılamayıb. Bildirilib ki, erməniəsilli Azərbaycan vətəndaşları bizim cəmiyyətimizə inteqrasiya olunduğu üçün onların Azərbaycan dilini öyrənmələrinə ehtiyac var. Bu barədə sizin düşüncələriniz nədən ibarətdir?***

- Bu məsələdən xəbərim yoxdur. Əgər Tural Gəncəliyev doğrudan da bu fikirləri işlədibsə, günü bu gün deputatlıqdan istefa versin. Bu hələ başa düşmür ki, ümumiyyətlə, erməni dili deyilən şey yoxdur. Nə mənada yoxdur? O mənada ki, onların yeganə dili zordur, güclü olmaqdır, onların təpələrinə dəmir yumruq vurmaqdır. Digər tərəfdən, mən erməni ilə niyə dil tapmalıyam ki? Bir deputat bu yanlışı edib belə bir fikir söyləyibsə, o parlametdəki 100-dən çox deputat buna cavab verməyibmi? Cavab verən yoxdursa, deməli, onlar da hamısı onun tayıdır.

✍ ***Sevinc***

---

# Dollar qıtlığı gözlənilir?

**Bildiyiniz kimi, Azərbaycanda fəaliyyət göstərən bir sıra bankların bankomatları və terminalları vasitəsilə ABŞ dolları əsginaslarının qəbulu bir müddətdir dayandırılıb. Buna səbəb dövriyyədə saxta əsginasların olmasıdır. Mərkəzi Bankdan həmçinin bildirilib ki, AMB tərəfindən bu ilin yanvar-sentyabr ayları ərzində 271 ədəd milli və 125 ədəd xarici valyutada saxta pul nişanı aşkar olunaraq dövriyyədən çıxarılıb.**

Onu da nəzərinizə çatdıraq ki, təxmini 1 ilə yaxındır valyutası dollarla olan bank kartlarının bankomatlar vasitəsi ilə manatla artırmaq mümkün olmur. Buna görə də vətəndaşlar banka gedib, uzun növbənin ardından manatı dollara çevirib kart hesablarını artırmalı olurdular. İndi bu yorucu proseslə də dollarla olan bank hesabını artırmaq mümkün olmayacaq. Bəs görəsən insanlar niyə manatla dollar hesabının balansını artıra bilmirlər? Bu hal nə vaxta kimi davam edəcək?

**■ Məsələ ilə bağlı hafta.az-a danışan bank üzrə mütəxəssis, hüquqşünas Əkrəm Həsənovun sözlərinə görə, bu onunla bağlıdır ki, Azərbaycanda uzun müddətdir dollar alışı ilə bağlı qeyri-rəsmi limit var. Bu, təbii ki, qanuna uyğun deyil:**

"Heç bir dövlət orqanı buna görə məsuliyyəti öz üzərinə götürmür. Bu dəqiqə banklarda tək dollar deyil, istənilən xarici valyutanın - avro, rubl və lirənin alışında da 20000 manatlıq limit var. Banklar 20000-i ötən kimi ya məsələyə baxmırlar, ya da çoxsaylı suallar verirlər.



Qeyri-rəsmi şəkildə bu məbləğ həddini aşmamaq barədə tapşırıq aldıqlarını bildirirlər. Tutaq ki, mən dollar hesabımı manatla artıran zaman dollar almış oluram.

Bu zaman bankomat limiti aşıb-aşmadığıma nəzarət edə bilmir. Ona görə də ümumiyyətlə qəbul etmir. Bu da ölkəmizdə qeyri-rəsmi olaraq dollar alışına məhdudiyyət olduğunu göstərir".

Yaranmış vəziyyəti və qarşıdan da Zəfər günü, Yeni il kimi bayramların gəldiyini nəzərə alsaq, ortaya belə bir sual çıxır: görəsən, növbəti aylarda ölkədə dollar qıtlığı yarana bilərmi? Ə.Həsənov irəliləyən zamanda dollar qıtlığının yaranacağını güman etmir: "Fikrimcə, dollara qıtlıq yaranmaz, çünki sadə vətəndaşların dollara ehtiyacı yoxdur. Bu yalnız varlı şəxslər üçündür. Belə izah edə bilərəm ki, bir şeyə harada məhdudiyyət varsa, deməli orada onu əyri yollarla daha baha əldə edirlər. Ona görə də ölkəmizdə dollar qıtlığının yaşanacağını düşünmürəm".

Xatırladaq ki, bu ilin yanvar-avqust aylarında Azərbaycandakı banklar əhalidən 931,926 mln. nağd ABŞ dolları alıb, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 24,7% çoxdur. Təkcə avqust ayında isə əhali banklara 124,015 mln. nağd dollar satıb ki, bu da aylıq ifadədə 4,1% çoxdur.

✍ ***Banu***

# 18 Oktyabrla bağlı qərar doğrudur

## Tarix

**30 *il öncə Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası barədə Konstitusiya Aktına imza atmış Prezident Ayaz Mütəllibov hafta.az-a müsahibəsində həmin tarixi gün ərəfəsində Azərbaycanın daxilində və xaricində baş verən proseslər, cəmi ilyarım öncə Bakıda sovet-rus imperiyasına qarşı ölüm-dirim savaşına qalxmış xalqımızın üzərinə azğınlaşmış əsgərlərini və tanklarını yeridən qaniçən Mixail Qorbaçovun respublika rəhbərliyinin bu qərarına münasibətindən və s. bəhs edib.***



**Ayaz Mütəllibov,**
Azərbaycan Respublikasının keçmiş Prezident

***- Ayaz müəllim, Müstəqillik Haqqında Konstitusiya Aktı qəbul olunmamışdan öncə - hələ 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqda Bəyannamə qəbul olundu. O günlər yaddaşınızda necə qalıb?***

- Təəssüf ki, o mötəbər günlərin xatirəsi detallı şəkildə yadımda qalmayıb. Çox ziddiyyətli dövr idi. Moskvada məlum "QKÇP" olayları yenicə baş vermişdi. Çox mürəkkəb bir vəziyyət yaranmışdı. Avqust olaylarının gedişində məlum oldu ki, bu proseslərdən, ancaq Yeltsinin timsalında Rusiya Federasiyası bəhrələndi. Şəxsən özüm o zaman dövlət işləri ilə əlaqədar Bakıda deyildim. Baş verənləri götür-qoy etdim. Gördüm ki, Moskvanın timsalında güc mərkəzi zəifləyib. Yeltsinlə Qorbaçov arasında güclü nüfuz, demək olar ki, hakimiyyət mübarizəsi gedir. Yeltsin federasiya prezidenti kimi qüvvəyə minib. Hər şeyi öz tərəfinə çəkməyə çalışır. Sonra mən Moskvaya getdim. Moskvada müttəfiq respublika başçılarının Qorbaçovla görüşü keçirildi.

Qorbaçovla görüşlərdən sonra burada müttəfiq respublikalara, o cümlədən Azərbaycana qarşı hansısa təxribatların olacağına inandım. Elə vəziyyət yaratmışdılar ki, ittifaqın paytaxtı olan Moskva indi federasiyanın mərkəzi idi və onların düşüncəsinə görə biz də Rusiya Federasiyasının tərkib hissəsi olmalıydıq. Düşündükləri bu idi. Biz də bununla heç razılaşmırdıq. Həmçinin ortada artıq tərəflər arasında açıq hərbi qarşıdurmalara aparan Qarabağ məsələsi var idi. Ona görə də Moskvadan qayıdandan dərhal sonra ətrafımdakı etibarlı adamlara tapşırıqlar verdim. Konkret olaraq Ali Sovetin sədri rəhmətlik Elmira Qafarovaya məsləhət gördüm ki, yavaş-yavaş Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı hazırlansın. İlk addım olaraq parlamentdə Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamənin səsverməyə çıxarılmasını tövsiyə etdim. həmin Bəyannamə 30 avqust 1991-ci ildə səsə qoyulan № 179-XII nömrəli qərarla qəbul edildi. Bundan sonra Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı hazırlandı və nəhayət, 1991-ci il oktyabrın 18-də qəbul olundu.

***- Həmin il sentyabrın 8-də Azərbaycandakı ilk Prezident seçkilərinin keçirilməsi qərarı necə verildi? Səhv etmiriksə, sizin həmin vaxt respublika başçısı kimi tutduğunuz vəzifə elə "Prezident" adlanırdı?***

- Bəli, elədir 1991-ci ildə mənim qərarımla ölkədə Prezident seçkiləri təyin olundu. Bu, Azərbaycanın müstəqilliyinin bərpası bəyan edildikdən ( 30 avqust 1991-ci il) sonra ilk ümumxalq Prezident seçkiləri idi. Həmin seçkilər 1991-ci il sentyabrın 8-də - Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamənin qəbul edilməsindən 10 gün sonra baş tutdu. Buna qədər 1991-ci ilin mayında Azərbaycan SSR-də Prezident parlament, yəni Ali Sovet tərəfindən seçilmişdi. O zaman müxalif qüvvə olan Xalq Cəbhəsi isə həmişə deyirdi ki, guya Prezident, yəni mənim tutduğum vəzifə qeyri-legitimdir, ona görə ki, parlament onu Azərbaycanda kommunist partiyası hakimiyyətdə olanda seçib. O zaman qərara gəldim ki, növbədənkənar Prezident seçkilərinə gedək və bununla da sübut edək ki, belə seçkilər keçirmiş müttəfiq respublikaların heç birindən geridə qalmırıq.

***- Bu qərarınıza ovaxtkı müxalifət necə reaksiya verdi?***

- Buna cavab olaraq müxalifət öz etirazını seçkilərin boykot olunması ilə ifadə etdi. Bununla AXC özü üçün yenə də seçkilərdə seçiləcək Prezidentin, guya "qeyri-legitim" olacağını elan etmək "haqqı"nı saxladı. Buna rəğmən elə etdik ki, ölkədəki bütün siyasi qüvvələr və xüsusən Xalq Cəhbəsi üçün seçkilərdə iştirak etmək və öz namizədini irəli sürmək şansı yaransın. AXC boykot haqda qərar verdikdən sonra müşahidələrimizdən belə qərara gəldik ki, onların prezidentlik üçün layiqli namizədləri yoxdur.

İstisna olaraq Sosial-Demokrat partiyası əvvəlcə seçkilərə getmək haqda qərar verdi və Zərdüşt Əlizadənin namizədliyini irəli sürdü. Seçkilərə az qalmış o, öz namizədliyini geri götürdü. Beləliklə, mən seçkilərə alternativsiz getməli oldum. Nəticələr gözlənilən oldu, səslərin böyük əksəriyyətini topladım. Bu minvalla 30 il öncə dünya ictimaiyyətinə sübut etdik ki, hakimiyyətin demokratik prinsiplərlə formalaşmasının tərəfdarıyıq.

***- AXC-nin həmin seçkilərdə o vaxt Ali Sovetin sədr müavini olan Tamerlan Qarayevin namizədliyini irəli sürmək təşəbbüsü olub?***

- Xeyr. Bu, mənim yadımda deyil. Xalq Cəbhəsi əsasən Əbülfəz Elçibəyin namizədliyi üzərində dayanırdı. Seçkiləri boykot qərarı verildikdən sonra, təbii ki, onun da namizədliyi irəli sürülmədi...

***- Nəhayət, 1991-ci il oktyabrın 18-də o tarixi və məsuliyyətli qərarı necə verdiniz?***

- 1991-ci ilin 30 avqustunda olduğu kimi, mən SSRİ-nin hələ dağılmadığı, Qarabağda hərbi qarşıdurmanın alovlandığı mürəkkəb bir dövrdə dövlət başçısı olaraq Ali Sovetin rəhbəri mərhum Elmira Qafarovaya göstəriş verməyə məcbur oldum ki, parlamenti toplayaraq Azərbaycanın Müstəqilliyinin Bərpası Haqqında Konstitusiya Aktının səsverməyə qoyulmasını təmin etsin. Deputatların böyük əksəriyyəti buna səs verdi...

***- Köhnə kommunist fəallardan kimlərsə sizi Azərbaycanın dövlət müstəqilliyinin elan olunması qərarından çəkindirməyə çalışmadı ki? Kimsə söyləmədi ki, bu addımımız Moskvanın xoşuna gəlməz və s.***

- Xeyr. Belə bir şey yadımda deyil. Ümumiyyətlə, ölkə daxilində bu təşəbbüsümüzə qarşı ciddi narazılıq olmadı. Azərbaycanın azadlıq və müstəqilliyinə nail olmaq xalqımızın çoxdankı arzusu idi. Bunu artıq həyata keçirmək ovaxtkı rəhbərlik kimi tərəfimizdən qəti və tamamilə düşünülmüş addım oldu. Düzdür, çox az sayda ayrı-ayrı şəxslər məsələyə başqa mövqedən baxırdılar. Azərbaycanın bizim bu təşəbbüsümüzü, eləcə də müstəlliyinin bərpası haqqında sənədi dəstəkləməyənlər, yəni parlamentdə buna səs verməyənlər də oldu. Halbuki, cəmi bir neçə il sonra məhz belələri dövlət müstəqilliyinin bərpasının siyasi və maddi bəhrələrinə sahib oldular. Yəni vəzifələrə, rütbələrə və s. yiyələndilər. Bu baxımdan, yəqin ki, müstəqilliyimizin bərpasına az sayda səs verməyənlər sonradan peşman olublar... Bir sözlə, bütövlükdə məsələ heç bir eksses, gərginlik olmadan həllini tapdı. Mən şəxsən hansısa ciddi bir etiraz hiss etmədim. Çünki dediyim kimi, nəinki siyasi dairələrdə, bütövlükdə Azərbaycan xalqında müstəqilliyin bərpa olunması istiqamətində fikir, ideya birliyi, böyük ruh yüksəkliyi vardı...

> *"Xaricdən, o cümlədən Moskvadan bizə heç bir təzyiq, yaxud göstəriş olmadı*

***- Sizin yaxın silahdaşlarınız, rəhbər məmurlar, o cümlədən rəhmətliklər - Tofiq İsmayılov, Məhəmməd Əsədov, İsmət Qayıbov Müstəqilliyin Bərpasına necə baxırdılar?***

- Dövlət rəhbərliyindəki məmurların əksəriyyəti, o cümlədən cəmi 1 ay sonra vertolyot qəzasında şəhid olmuş əsas komanda üzvləri: Tofiq İsmayılov, Məhəmməd Əsədov, İsmət Qayıbov və digərləri də bu məsələdə birmənalı olaraq xalqın və mənim yanımda idilər...

Bu günədək xalqımız həmin mürəkkəb dövrdə bəzən öz həyatları bahasına müstəqilliyimizin bərpasına yol açmış siyasətçilərə böyük hörmətlə yanaşır. Həyat göstərdi ki, biz o dövrdə haqlı olmuşuq və doğru addım atmışıq. Əksəriyyət buna şübhə etmirdi və indi də etmir...

***- Müstəqilliyimizin Bərpası Haqqında o mötəbər sənədin qəbul olunması ərəfəsində həmin vaxt hələ tam çökməmiş SSRİ rəhbərliyi tərəfindən Azərbaycan rəhbərliyinə hansısa formada təzyiq edilmədi ki?***

- Açığını deyim, 18 Oktyabr - Dövlət Müstəqilliyimizin Bərpası Haqqında Konstitusiya Aktının Ali Sovetdə qəbul edilməsi ərəfəsində Moskva tərəfindən Azərbaycan rəhbərliyinə heç bir təzyiq-filan olmadı. SSRİ-nin ovaxtkı və sonuncu lideri Mixail Qorbaçov artıq müstəqillik yolunu tutan keçmiş müttəfiq respublikalara təzyiq göstərmək iqtidarında deyildi. Ona görə ki o, həmin dövrdə İttifaq dövlətində mövcud olan qeyri-müəyyənlik və xaos girdabında çabalayırdı... Sovet İttifaqı rəhbərliyində hər şey, bütün daxili problemlər, xarici təzyiqlər bir-birinə qarışmışdı. Digər tərəfdən, mərkəzi hakimiyyət uğrunda SSRİ Prezidenti Mixail Qorbaçov və Rusiya Prezidenti Boris Yeltsin arasında dərin ziddiyyət və qalmaqallar başlamışdı. Bütün bunlardan baş çıxarmaq üçün dəqiq və xətasız rəhbərlik etmək lazım idi. Moskvada isə belə bir rəhbər yox idi... Yerlərdə də mövcud vəziyyətdən düzgün nəticələr çıxarıb qəti qərarlar vermək gərək idi. Bütün çətinliklərə rəğmən Azərbaycan rəhbərliyi olaraq belə qərar verdik və Müstəqilliyimizin Bərpasını bəyan etdik...

Bir daha təkrar edirəm: xaricdən, o cümlədən Moskvadan bizə heç bir təzyiq, yaxud göstəriş olmadı. Azərbaycanda özümüz müstəqil olmaq qərarını verdik, bunu bəyan etdik. Heç kəs bu işdə bizə maneə yaratmadı. Nəticədə bütün məsuliyyəti üzərimizə götürərək xalqımızın 70 ildən çox xəyal etdiyi arzusunu həyata keçirdik və gerçəkləşdirdik... Bütün bunlarla belə, o hadisələri yaşayanlar, eyni zamanda, həmin illərin tarixini yaxşı bilənlər gözəl anlayar ki, hələ Sovet İttifaqının mövcud olduğu, eyni zamanda, Qarabağda artıq hərbi qarşıdurmaların, xalqımıza qarşı soyqırımın alovlandığı, daxildə hakimiyyət uğrunda mübarizə aparan qrupların fəallaşdığı o çox mürəkkəb və ziddiyyətli bir dövrdə Kremlin imperiya ambisiyalarının əleyhinə addım atmaq nə qədər böyük məsuliyyət və fədakarlıq tələb edirdi. Odur ki, Müstəqilliyin Bərpası haqda qərarın verilməsinə aparan yolda illərlə əziyyət çəkmiş, bəzən həyatları bahasına fədakarlıq göstərmiş siyasi lider və ayrı-ayrı siyasətçilərin zəhmətini unutmaq olmaz...

***- Ayaz müəllim, siz özünüz 30 il sonra bilavasitə baş iştirakçısı olduğunuz bu mötəbər hadisəni necə dəyərləndirirsiz?***

- 18 oktyabr 1991-ci ildə qəbul olunmuş Müstəqillik Haqqında Konstitusiya Aktına uyğun olaraq Azərbaycanın öz müstəqilliyini bərpa etməsi çoxminillik tariximiz boyu ən həlledici addımlarımızdan biri oldu. Bu addım o zaman Azərbaycanı sevənlər tərəfindən ruh yüksəkliyi ilə, sevməyənlər tərəfindən isə ciddi narahatlıqla qarşılandı...

Ölkəmiz ətrafında 1990-cı illərin əvvəlində baş verən mürəkkəb geosiyasi proseslər, o cümlədən Qarabağdakı hadisələr fonunda müstəqilliyimizin elan edilməsi müasir Azərbaycanın tarixində yeni səhifə başlatdı və həmin addımın atılmasına şərait yaradanların tarixi-siyasi nöqteyi-nəzərdən də qətiyyətliliyini təsdiqlədi. Azərbaycanın bugünkü dövlətçiliyinin durumu da tariximizin o zamankı mürəkkəb dövründə ayıqlıq nümayiş etdirmiş xalqımızın müdrikliyini sübut edir. Ötən onilliklərin bütün keşməkeşləri bizim 30 il öncə - 18 oktyabr 1991-ci ildə doğru addım atdığımızı və Azərbaycanın gələcəyi üçün böyük və geniş bir yol açdığımızı göstərir. Heç kəsin Azərbaycanın tam mənada müstəqil dövlət olmağı haqq etməsindən şübhəsi yoxdur.Ovaxtkı dövlət başçısı kimi mənə gəldikdə, müstəqilliyin elan edilməsi haqda qərarları verərkən Azərbaycan xalqının bizim təşəbbüslərimizi dəstəkləyəcəyinə və öz həyatları bahasına ölkəmizin bərpa olunmuş müstəqilliyini elan edən və mərhələ-mərhələ möhkəmlədən siyasi liderlərin arxasında duracağına bir an da belə şübhə etmirdim Bununla fəxr etmək olar...

***- Yeri gəlmişkən, Azərbaycan dövlətinin 18 Oktyabrın bundan sonra Müstəqilliyimizin Bərpası Günü adlanması qərarına necə baxırsınız?***

- Deyim ki, məntiqli və təqdirəlayiq addımdır İnanıram ki, gələcək də bizimlədir və bir xalq-dövlət olaraq qarşımızda duran bugünkü çətinlikləri dəf edəcəyimizə şübhə yoxdur. Xüsusən torpaqlarımızın azadlığı uğrunda II Qarabağ müharibəsini təşkil etmiş və onu qələbə ilə nəticələndirmiş siyasi rəhbərliyin xidmətlərini vurğulamaq istərdim. Bundan sonra da düşmən güclər qarşısında belə qətiyyətli və iradəli mövqe tutulması arzusuyla xalqımızı və dövlət rəhbərliyini öncədən Dövlət Müstəqilliyimizin Bərpasının 30 illiyi münasibətilə təbrik edir, həyatımızın bütün sahələrindəki, xüsusən Qarabağda, Zəngəzurda - işğaldan azad edilmiş quruculuq və məskunlaşma işlərində yeni-yeni uğurlar diləyir, müstəqil Azərbaycan Respublikasının hər bir vətəndaşına daim rifah və şadlıq dolu xoşbəxt həyat arzulayıram...

***✍ Sultan Laçın***

***Füzulinin işğaldan azad edildiyi gün Prezident İlham Əliyev bu rayona növbəti səfərini etdi, bir sıra layihələrin təməlqoyma mərasimlərinə qatıldı. Füzuli rayon ictimaiyyəti ilə görüşdə bir sıra önəmli bəyanatlar verdi. Azərbaycan ictimaiyyəti bir daha Füzulinin timsalında işğaldan azad edilən ərazilərin bərpası ilə bağlı görülən işlərin miqyasının əyani şahidi oldu. "Azərbaycan Prezidenti cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu günlərdə Füzuli rayonuna səfəri erməni faşizmi üzərində tarixi qələbəmizin ildönümünə təsadüf edir. Bu səfər xüsusi məna daşımaqla çox əhəmiyyətlidir.***

# Yenidənqurma işləri külli miqdarda dövlət vəsaiti tələb edir

## Bərpa

Cənab Prezident artıq bir il ərzində bir neçə dəfə işğaldan azad olunmuş ərazilərə səfər edib, görülən işlərin gedişi ilə yaxından tanış olub, bir çox təməlqoyma mərasimlərində iştirak edib, həm də qarşıda duran vəzifələrin aydın proqramını həm icraçılara, həm də xalqımıza çatdırıb. Füzuliyə səfər də bu baxımdan xarakterikdir, çünki ölkə başçısı öz çıxışında xatırlatdı ki, mən rayonun bizdə olan hissəsinə hələ qələbədən əvvəl dəfələrlə gəlmişəm. O bildirdi ki, artıq 12-ci dəfə Füzuli rayonunda olur Prezident çıxışı zamanı Horadizdə görülmüş işlərə diqqəti cəlb etdi, eləcə də işğaldan sonra həyata keçirilmiş bir çox tədbirləri nəzərə çatdırdı:

■ **"Əlbəttə ki, bu işlər möhtəşəmdir, əhatəsinə, daşıdığı əhəmiyyətə görə çox qiymətlidir". Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Tahir Rzayev bildirib. Millət vəkili, həmçinin qeyd edib ki, Füzulidə beynəlxalq hava limanının tez bir zamanda istifadəyə verilməsi Azərbaycan üçün böyük önəm daşıyır:**

"Bu hadisə nəinki ölkəmiz üçün, eləcə də regionda böyük əks-səda yaradıb. Sözsüz ki, Prezidentin sonuncu səfəri əhəmiyyətinə, Füzulinin gələcək inkişafına görə xarakterik olmaqla bərabər, həm də ölkə rəhbərinin işğaldan azad olunmuş ərazilərə böyük qayğı və diqqətinin bir nümayişidir. Cənab Prezident, eləcə də xanımı Füzuli-Ağdam avtomobil yolunun Dövlətyarlı kəndində "ağıllı kənd"in, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimlərində iştirak etdilər. Füzulidə yaradılacaq mərkəzi şəhər parkında ağac əkdilər və gələcəkdə bu parkın çox möhtəşəm olacağını bildirdilər. Digər tərəfdən, şəhər sakinləri ilə, hərbçilərlə, ziyalılarla görüşdülər və bu görüş olduqca səmərəli keçdi. Cənab Prezident görüşdə gələcəkdə rayonda görüləcək tədbirlərə böyük əhəmiyyət verildiyini bildirməklə burada çoxmərtəbəli yaşayış məhəlləsinin salınacağını da diqqətə çatdırdı. Digər tərəfdən, Prezident İlham Əliyev çox keçmədən "Füzuli Memorial Kompleksinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" mühüm sərəncam imzaladı. Bu



onu göstərir ki, ölkə rəhbəri işğaldan azad olunmuş ərazilərin gələcəkdə özünün də söylədiyi kimi cənnətə çevrilməsi arzusundadır və bu arzu, istək hazırda real işlərdə öz əksini tapır".

T.Rzayev onu da vurğuladı ki, azad olunmuş ərazilərdə yenidənqurma işlərinin sürətlə aparılması Azərbaycanın gücünü və qüdrətini bir daha ortaya qoyur: "Yenidənqurma işləri külli miqdarda dövlət vəsaiti tələb edir. Müharibənin doğurduğu çətinliklər, eləcə də pandemiyanın yaratdığı ağrılı günlər, sözsüz ki, Azərbaycan iqtisadiyyatına da müəyyən qaydada öz təsirlərini göstərmişdi. Ölkə rəhbəri dəfələrlə xatırlatmışdı ki, Azərbaycan iqtisadiyyatı davamlı və möhkəmdir. Ona görə də istər pandemiya dövründə, istərsə də 44 günlük müharibədə Azərbaycan iqtisadiyyatı çökmədi. Ölkəmizdə istər ərzaq, istərsə də iqtisadi problem yaranmadı. Bu ondan xəbər verir ki, ölkə rəhbəri hakimiyyətdə olduğu illər ərzində Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi,eləcə də möhkəm iqtisadi bazanın yaradılması üçün lazımi tədbirlər görmüş və qarşıda duran çətinliklər düşünülmüş şəkildə nəzərə alınmışdır. Əlbəttə ki, Azərbaycan iqtisadiyyatı möhkəm, davamlı olmasaydı biz müharibədə öz sözümüzü deyə bilməzdik, qələbəni təmin etmək mümkün olmazdı. Müharibə ağır iqtisadi çətinliklər yaratmaqla bərabər, həm də külli miqdarda vəsait tələb edir. Azərbaycan Prezidenti hər dəfə xatırladırdı ki, əgər iqtisadiyyatımızı möhkəmləndirsək, ordumuzu müasir silahlarla təmin etsək, əsgər və zabitlərimizdə böyük ruh yüksəkliyi yaratsaq, xalqımızın həmrəyliyinə nail ola bilsək, mütləq düşmən üzərində qələbə çalmağa qadirik. Sözsüz ki, bu deyilənlər 44 günlük müharibədə özünün aydın ifadəsini tapdı. Azərbaycan xalqının birliyi, ordumuzun qüdrəti, ölkə rəhbərinin düşünülmüş siyasəti tarixi qələbələrimizə yol açdı. Cənab Prezident bu gün yerlərdə olarkən çox böyük inamla səsləndirir və bildirir ki, biz qələbələrimizi təmin etmişik, ancaq bundan sonra işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərini sürətlə davam etdirməliyik. Onu da qətiyyətlə bildirir ki, heç bir qüvvə, heç bir yad meyllər bizim işlərimizin, gördüyümüz tədbirlərin qarşısını ala bilməz. Bu dəfə Füzülidə olarkən ölkə rəhbəri bir daha səsləndirdi ki, biz öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik. Təbii ki, bu ifadələr hər birimizim qəlbindədir, çünki 30 il işğal altında olan torpaqlarımızın ağrı-acısını çəkmiş xalqımız bu gün qürurludur, vüqarlıdır, öz prezidenti ilə bərabərdir. Əlbəttə ki, bu birlik bizi daha uğurlu, daha aydın gələcəyə aparacaqdır".

***✍ Sevinc***



■ **"Məktəblərin bağlanmasını istəmirik. Mümkün qədər əyani təhsil formasının davam etməsini istəyirik". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib.**

Onun sözlərinə görə, hələ ki, belə hallar bağlanma qərarının verilməsi üçün çox deyil: "Ayrı-ayrı yerlərdə xəstələnmə halları olursa, lokal tədbirlər görülür. Bu məktəblərin bağlanması daimi deyil, 14 gün sonra açılır.

Təkcə Azərbaycanda deyil, əksər ölkələrdə belə yanaşma var. Mümkün qədər çalışılır ki, həyat öz axarı ilə davam etsin. İndiki yumşalmalar insanlar üçün yetərlidir". Mütəxəssis qeyd edib ki, yoluxmada artım var və olacaq:



■ **Zaqatalada bir ailənin üç üzvü göbələkdən zəhərlənib. Hadisə dünən səhər saatlarında rayonun Aşağı Tala kəndində qeydə alınıb.**

Kənd sakinləri, bir ailənin üzvüləri 1968-ci il təvəllüdlü Mahir Hudul oğlu Kələşov, onun həyat yoldaşı 1971-ci il təvəllüdlü Leyla Vəli qızı Kələşova və övladları 2008-ci il təvəllüdlü Məhəmməd Mahir oğlu Kələşov zəhərlənmə əlamətləri ilə Zaqatala Rayon Mərkəzi Xəstəxanasına daxil olub. İlkin müayinə və araşdırma zamanı ailə üzvülərinin göbələkdən zəhərləndiyi məlum olub. Kələşovlar ailəsinin üzvülərinə Zaqatala RMX-da lazımi tibbi yardım göstərildikdən sonra vəziyyətləri stabilləşib. Kələşovlar ailəsi tam müayinə edilmək üçün Bakıya Respublika Toksikalogiya Mərkəzinə göndərilir.



■ **İşğaldan azad olunmuş ərazilərdə radio-televiziya yayımlarının bərpası ilə bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi (Teleradio İB) tərəfindən Zəngilan rayonunun Mincivan qəsəbəsində yerləşən Mincivan Radio-Televiziya Yayım Stansiyasının mövcud 30 metrlik qülləsindən istifadə olunmaqla 8 TV və 2 radio proqramının Zəngilan şəhəri və Zəngilan rayonunun 10-dan artıq kəndində yayımı təmin olunub.**

Buna qədər isə Şuşa Radio-Televiziya Yayım Stansiyasında müvafiq avadanlıqlar quraşdırılaraq 31 dekabr 2020-ci il tarixindən etibarən radio-televiziya yayımı Şuşa, Xankəndi şəhərləri və Xocalı, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrində bərpa edilib.




■ **Eyniadlı sosial şəbəkədən başqa "Instagram", "WhatsApp" və "Oculus"un sahibi olan "Facebook" şirkəti adını dəyişməyi planlaşdırır. Bu barədə "The Verge" mənbəyə istinadən yazır.**

Qeyd olunur ki, "Facebook"un baş direktoru Mark Zukerberq oktyabrın 28-də keçiriləcək konfransda şirkətin yeni adı ilə bağlı ətraflı məlumat verəcək, lakin yeni adın özü daha əvvəl təqdim oluna bilər. Bildirilir ki, şirkətin yeni adı hətta "Facebook" rəhbərliyindən də gizli saxlanılır. Rebrendinqdən sonra şirkətin yeni adı "Facebook"un avqustda təqdim etdiyi "Horizon" məhsulu ilə bağlı olacağı ehtimal edilir. Bu, video-konfrans vasitəsilə və ya "Oculus VR" virtual şləmindən istifadə edərək qoşula biləcəyiniz virtual ofislər şəbəkəsidir.



■ **ÜST-nin məlumatına görə, dünyada hər üç qadından 1-i ya evdə, ya işdə zorakılığa məruz qalır. Bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib:**

"Bu gün işsiz qadınlar 57,5 % təşkil edir. Baxmayaraq ki, əmək qabiliyyətli qadınların sayı kişilərin sayından çoxdur. Əsas diskriminasiya burada qadın əməyinin kişi əməyinə nisbətən az qiymətləndirilməsidir. Bu, bütün dünyada belədir. Azərbaycanda qadınların əməyi kişi əməyindən daha az qiymətləndirilir. Bunun bünövrəsi iqtisadi azadlıqdadır. Əgər iqtisadi azadlıq olmayacaqsa, biz sosial azadlığı da təmin edə bilməyəcəyik. Ev işlərinin, ailə üzvlərinə qulluqla bağlı haqqı ödənilməyən iş saatlarının 77%-i qadınların payına düşür.



■ **Bakı Dövlət Universitetində (BDU) təhsilalanlar arasında hər qrupda bir nəfərdə COVID-19 virusu aşkarlandığı üçün 7 müxtəlif qrupun bütün dərsləri 14 gün müddətinə onlayn formaya keçirilib. Bu barədə hafta.az-a BDU-nun mətbuat katibi Günel Orucəliyeva məlumat verib.**

O bildirib ki, 2021/2022-ci tədris ilinin payız semestrində Bakı Dövlət Universitetinin (BDU) bütün fakültələrində tədris növbəli şəkildə hibrid formada - mühazirələr həftədə iki gün olmaqla "BLACKBOARD" elektron təhsil sistemi üzərindən onlayn, məşğələ və laboratoriya dərsləri isə həftədə üç gün olmaqla əyani (ənənəvi) şəkildə təşkil olunur:

# Falçılara daha çox kimlər inanır?

## Müzakirə

***Ötən günlərdə Ağstafa Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində bir nəfər rayon sakinini fala baxmaq adı ilə aldadaraq onun pulunu mənimsəyən Bakı şəhər sakini Gülarə Abıyeva saxlanılıb. Araşdırmalar zamanı məlum olub ki, G.Abıyeva Ağstafa rayonuna gələrək rayon sakininin qohumlarının məzarında cadu olduğunu bildirib və ondan həmin cadunun tapılmasına görə 2000 manat pul alıb. G. Abıyeva bir neçə ay sonra yenidən rayona gələrək həmin vətəndaşla görüşüb, eyni ritualı təkrar edərək vətəndaşın əlavə olaraq daha 2000 manatını dələduzluq yolu ilə mənimsəyib.***



“

*Ömrünü fala inanaraq keçirən və falçının dediyi ilə oturub-duran heç vaxt sağlam düşüncəyə sahib ola bilməz*

Görünən odur ki, belə hallar nə ilk deyil, nə də son olacaq. Ataların “Fala inanma, faldan da qalma” deyimi də bu yerdə yada düşür. Bəs görəsən, bütün belə hadisələrdən sonra insanlar niyə hələ də xurafata, fala inanır? Bir insan pullarını hansı səbəbdən fala və falçıya güvənib havaya sovurur?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan psixoloq Gülnar Orucova bildirdi ki, falçıya gedən insanlar əsasən motuvasiyası zəif, yaşadığı hadisələrdən təsirlənib çıxış yolunu görə bilməyənlər, depressiyada olan, gələcəyinə daha çox bağlı və maraqlı şəxslər xüsusən də qadınlardır.** Bunların içində gənc qızlar da var. Yaşlı nəsil isə falçılara daha çox inanır: “Quran açdırmaq, Quranda gələcəyə baxmaq bu insanların əsas söyləntiləridir. Əslində isə Quranda elə bir şey yoxdur. Quran ayəsi, yaxud surəsi ilə gələcək haqqında nə isə bilmək, təbii ki, mümkünsüzdür. Biz psixoloqlar müraciət edənləri motivasiya etməyi bacarırıq, falçılar da həmçinin bu işdə olduqca yaxşıdırlar. Onlar yanına gələn şəxsləri inancının gerçəkləşəcəyinə, onun uğrunda mübarizə aparmağa inandırır. Bilirik ki, inanc uğrunda mübarizə apardıqda qalib gəlinir. Sonra da bu qalibiyyəti falçı ilə əlaqələndirirlər”. Psixoloq deyir ki, bəzən falçıya getməyin nəticəsi ölümlə belə nəticələnə bilir:

“Falçıya müraciət etməklə insanlar ölümə qədər gedib çıxa bilirlər. Dələduz falçılar daha artıq pul almaq üçün insana bədənində cin olduğunu, bəxtinin bağlı olduğunu və bu kimi digər yalanlar uydurur. Nəhayətində həmin insan ağır depressiyaya düşə, yaxud intihar həddinə çata bilir”. Mütəxəssis bir məqamı da xüsusi vurğuladı ki, ömrünü fala inanaraq keçirən və falçının dediyi ilə oturub-duran heç vaxt sağlam düşüncəyə sahib ola bilməz: “İnsanın həyatını davamlı olaraq falçılara bağlaması, onların dediyi ilə addımlamaqları, ən yanlış hərəkətdir. Bir müddət sonra falçı həmin şəxsi öz inandığı fikrə rahatlıqla inandıra bilər. Belə hallarla əsla razılaşmayın. Həyat bir mübarizədir. Bu mübarizədə gücünüz və iradəniz varsa qalib gələcəksiniz. Hər boşluğa düşəndə falçıya müraciət edib onun yalançı vədlərinə əməl etmək əvəzinə çıxış yolu axtarın. Ən depressiv vəziyyətlərdə mütəxəssislərə, psixoloqlara müraciət edin. Səbəbləri axtarın, yanlış insanlara yem yeri olmayın. Əminəm ki, falçılar onlara müraciət edənlərə ovçu gözü ilə, ov kimi baxırlar. Falçı şəxsi düzəltmək yox bacardığı qədər pul qoparmaq istəyir. Düşünək ki, falçının özü ağıllı kəs olsaydı qəbuluna çox sayda adam yığmaq əvəzinə pul qazanmağın daha asan yollarını tapardı”.

■ **Sosioloq Əhməd Qəşəmoğlu məsələyə bir qədər fərqli yanaşır. Onun sözlərinə görə, əsl falçı insan həyatına təsir edə və yön verə bilər, ancaq bundan qat-qat artıq fəsadlar da törədəcəkdir:** “Məsələ burasındadır ki, fala və falçılığa inama İslamın Müqəddəs Kitabı - Quranda yaxşı baxılmır. Elmi baxımdan izahına gəldikdə isə deyə bilərəm ki, falçılara müraciət etmək olduqca təhlükəlidir. Fal mövzusunda mühüm bir məqam var, bəzən insanlar bunu yaddan çıxarırlar. Falçıların çox az qisminin, təxminən,

“

*Bir çoxları falçıya başqalarına pislik etmək üçün gedirlər*

10-15 faizinin bu məsələdə az da olsa bacarıqları var. Hər bir insanın müəyyən dalğaları var, bu dalğalara müdaxilə edib müəyyən informasiyaları dəyişmək, yaxud əldə etmək elmi baxımdan da izah olunub. Çox nadir adamlar bu dalğaları tutub ona yön verə bilir. İndi falçıların əksəriyyəti şarlatanlıq edirlər. Onlar heç bir bacarıqları olmadan insanları aldadıb pullarını mənimsəyirlər. Falçılara müraciət etməyin təhlükəli olmasına gəldikdə isə onlar insanın energetik sisteminə daxil olub məlumatlar verən zaman müxtəlif fəsadlar törədirlər. Falçı nəyisə düz deyə bilər. O da bütün falçılara aid deyil, yalnız 10-15 faizi bu bacarığa sahibdir. Həmin şəxslər belə insanda cürbəcür fəsadlar qoyur. Ona görə də fikir versəniz görərsiniz ki, çox falçı yanına gedən insanların həyatında çoxlu sayda ciddi təhlükəlli hadisələr baş vermiş olur”.

Sosioloq fəsadların bununla kifayətlənmədiyini də dilə gətirdi:

“Həmçinin fal insanın psixologiyasına mənfi təsir edir. Falçının yanına getmək həm psixoloji, həm də energetik cəhətdən təhlükəlidir. Elə mənəvi cəhətdən də bu, heç yaxşı iş deyil. Bir çoxları falçıya başqalarına pislik etmək üçün gedirlər. Bütün bunları bir araya gətirdikdə anlamaq olur ki, niyə İslam dini falı pisləyir”.

*✍ Banu*

## Təhsil



# Kişi, yoxsa qadın müəllim?

***“Gələcəkdə qadınların təhsildə çox olması problem yaradacaq. Amma biz kişi müəllimlərin çox olmasını istəyirik”. Bu sözləri təhsil naziri Emin Əmrullayev, ötən gün mediaya açıqlamasında bildirmişdi. Onun sözlərinə görə, ölkədə hər 5 ildən bir 10 yaşlı şagirdlər arasında qiymətləndirmə keçirilir:***

“Müəyyən edilir ki, qızlar oğlanlardan daha yaxşı nəticə göstərir. Onu da qeyd edək ki, qızlarda oxuyub-anlama bacarığı oğlanlara nisbətdə yaxşıdır. Növbəti qiymətləndirmə zamanı 15 yaşlı şagirdlər arasında qızların nəticələrinin aşağı düşdüyünü müşahidə edirik. Bunu təhlil etmək lazımdır. Düşünürəm ki, bu təhsil-pedaqoji məsələ ilə bağlı deyil, onların əhatə olunduqları insanların münasibəti və ünsiyyətə məruz qaldıqları hallarla bağlıdır”.

Hafta.az-ın əməkdaşı mövzunu mütəxəssislərlə müzakirə etdi.

■ **İlk müsahibimiz təhsil eksperti Elçin Əfəndi oldu. O bildirdi ki, hazırda respublikanın təhsil ocaqlarındakı müəllimlərin təxminən 90 faizini qadınlar təşkil edir. Bu gələcəkdə çox ciddi fəsadlar verəcək:**

“Təhsil müəsisələrində qadın müəllimlərin çoxluğu gələcəkdə şagirdlər arasında münasibətin daha irəli getməsinə, təhsildən yayınmaya səbəb olacaq. Düzdür, bəzi məktəblərimizin rəhbər heyəti sırf qadınlardır və onların zəhmi yerindədir. Bunu bütün xanım müəllimlərə şamil etmək olmur. Düşünürəm ki, məsələ ilə bağlı ciddi addımlar atılmalıdır. Təhsil Nazirliyi kişi müəllimlərin işə cəlb olunması, pedaqoji ixtisaslarda oğlanların təhsil alması istiqamətində işlər görməlidir. Bunun üçün, pedaqoji ixtisasların plan yerləri və məktəblərdə müəllimlərin əmək haqqı artırılmalıdır. Diqqətinizə çatdırım ki, orta məktəblərdə müəllimlərin qadın olması şagirdlərə dərs vaxtı hazırlıqlara getməyə şərait yaradır. Onlar məsələyə analıq instikti ilə daha həssas yanaşırlar, bəylərdə isə bu əksinədir. Kişi müəllimlər daha çox məsuliyyət hiss edib uşaqları buraxmırlar. Təsadüfi deyil ki, şagirdlər yuxarı sinifə çatdıqda onlarda dərsə qarşı məsuliyyətsizlik yaranır. Bu da onların nəticələrinin aşağı olmasına gətirib çıxarır”. Ekspert məsələnin əsas həll yolunu müəllimlərin maaşının yüksəldilməsindı görür:

“Kişi ailə başçısıdır. Onları az əmək haqqı qane etmir. Xanım müəllimlər ailə büccəsinə qatqı olaraq işləsə də, kişilər ailə dolandırmalı olan əsas şəxslərdir. Fikrimcə müəllimlərin əmək haqqının qaldırılması, gələcəkdə kişilərin də bu sahəyə olan marağını artıracaq”.

■ **Növbəti həmsöhbətimiz olan təhsil eksperti Kamran Əsədov bildirdi ki, bu gün Azərbaycanın 4481 ümumtəhsil məktəblərində çalışan 149,602 müəllimin 71%-ni xanımlar, 29 %-ni isə kişi müəllimlər təşkil edir. Elə bu rəqəmlər vəziyyətin nə qədər təhlükəli olduğunu göstərir:**

“Orta məktəblərdə kişi müəllimlərin azlığı şagirdlərin xarakterinin formalaşmasına ciddi şəkildə təsir göstərir. Yəni hal hazırda təhlükə yalnız və yalnız təhsilin keyfiyyəti, dərsə davamiyyət və ən nəhayət, uşaq xarakterinin formalaşması ilə bağlıdır. Uşaqlar məktəbəqədər təhsil pilləsindən tutmuş, ali məktəbə qədər ancaq qadın müəllimlərin, evdə də analarının təsiri altında formalaşır ki, bu da onların xarakterinə təsirsiz ötüşmür. Etiraf edim ki, bu gün müəllimlərin aldığı əmək haqqı onların aylıq xərclərini ödəmir. Biz 1980-ci illərə nəzər salsaq görərik ki, bu rəqəm 50/50 vəziyyətindədir. Bəzi bölgələrimizdə isə kişi müəllimlərin say faizi daha üstün idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, ölkədə baş verən hadisələr, Qarabağ müharibəsi, iqtisadi çətinlik müəllim kimi fəaliyyət göstərən böyük sayda kişini bu sahədən uzaqlaşdırdı. 1995-ci ildən sonra ölkədə sabitlik yarandıqdan sonra da müəllimin əmək haqqının azlığı bu sahədən üz döndərən kişi müəllimlərin sayını azaltmadı”.

Kamran bəy hazırda Bakıdakı orta məktəblərdə fəaliyyət göstərən müəllimlərdən 27 mininin qadın, 3600-nün isə kişilər olduğunu xüsusi vurğuladı. Rəqəmlər vəziyyətin nə qədər ciddi olduğunu deməyə kifayət edir. Dünya ölkələrində isə vəziyyət bir xeyli fərqlidir:

“Müəllimlərin məvaciblərinin azlığı kişi pedaqoqların təhsil sahəsindən uzaqlaşmasına səbəb olur. İş o yerə çatıb ki, paytaxt məktəblərində hətta bədən tərbiyəsi və idman dərslərini də qadın müəllimələr tədris edirlər. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın kənd rayonlarında qadın müəllimlər yox dərəcəsində idi. Bu

“

*Düzdür, bəzi məktəblərimizin rəhbər heyəti sırf qadınlardır və onların zəhmi yerindədir...*

*“Müəllimlərin məvaciblərinin azlığı kişi pedaqoqların təhsil sahəsindən uzaqlaşmasına səbəb olur...*

*Orta məktəblərdə kişi müəllimlərin olması natamamlıq kompleksi yaşayan uşağa yardım etmək baxımından yaxşı təsir göstərər...*

boşluğu doldurmaq üçün Rusiyanın müxtəlif bölgələrindən, eləcə də paytaxt Bakı şəhərindən yerlərə kütləvi şəkildə qadın müəllimlər göndərirdilər. Müəllim kimi yeni işə başlayan gənc, təbii ki, bu maaşla dolana bilməyəcəyinin fərqindədir və müəllimlik diplomunu bir kənara atıb, normal maaşlı iş axtarmağa məcbur olur. Dünyanın bir çox inkişaf etmiş ölkələrində uşaq bağçalarında tərbiyəçi qadın yoxdur. Uşaqları yalnız kişilər tərbiyə edirlər. Kişilərin tədrisə və uşaqların tərbiyə prosesinə yanaşması isə fərqlidir. Bunu müxtəlif cür izah etmək olar. Qadınlar bu məsələdən inciməməlidirlər. Bu göstərici onların kişilərdən xarakter baxımından zəif olmaları və ya kişilərdən aşağı səviyyədə tədris etmələri kimi qəbul edilməməlidir. Dünyada bu proses belədir. Hansı ölkələrdə ki, kişilərin sayı qadınların sayından üstündür, bu təhsilin keyfiyyətinə müsbət mənada təsir edir. Sovet hakimiyyəti dövründə müəllimin böyük güzəşt və imtiyazları var idi, nəqliyyat xərcləri də daxil olmaqla, digər kommunal ödənişlərdən azad idi. Dövlət büdcəsinin vəsaiti hesabına hər il istirahət mərkəzlərinə, sanatoriyalara göndərilirdi. Əlbəttə ki, sovet hakimiyyəti sosialist ölkə idi, indi isə kapitalizm dövrüdür. Bir çox ölkələrdə müəllimin dövlətin kadr potensialının gücləndirilməsi, formalaşdırılmasında xidmətini nəzərə alaraq, yüksək əməkhaqqı ilə yanaşı, güzəşt və imtiyazlar saxlanılıb”.

Mütəxəssis kişi müəllimlərin sayının artırılmasını zəruri hal hesab edir. İndiki vəziyyətdə büdcə xərcləri nəzərə alaraq maaşların artırılmasından savayı, alternativ tədbirlər də görmək olar: “Hesab edirəm ki, bu sahəyə yenidən kişi müəllimlərin cəlb edilməsi üçün zəruri olan addımların önündə müəllimlərə dövlət qulluqçusu statusunun verilməsi dayanır. Bundan başqa dövlət büdcəsinin vəsaiti imkan vermir ki, müəllimin əmək haqqı ciddi şəkildə artırılsın. O zaman müəllimi müəyyən olunmuş xərclərdən azad etmək lazımdır. Yəni müəllim işıq, qaz, su kimi xərclərdən azad edilməlidir ki, aldığı az əməkhaqqını sosial rifahına yönəldə bilsin.

Müəllim gözünün işığını, sağlamlığını xalqın gələcəyinə sərf edir, ona ciddi şəkildə diqqət ayırmaq lazımdır. Azı hər altı aydan bir müəllimlərin pulsuz və yüksək səviyyədə tibbi xidməti həyata keçirilməlidir. Bilirsiniz, müəllimə müqəddəslərə göstərdiyimiz ehtiramı göstərməliyik, səfirlərə verilən təhlükəsizlik və toxunulmazlığı həm də müəllimə verməliyik, deputata verilən əmək haqqını müəllimə verməliyik”.

■ **Təhsil ekspertləri ilə müzakirənin ardından, problemə bir də psixoloji aspektdən yanaşaq dedik.** Bunun üçün də, Psixoloq Gülər Məmmədovaya müraciət etdik. O, kişi müəllimlərin tədrisə cəlb edilməsinin xüsusilə oğlan uşaqlarının tərbiyəsində önəmli rol oynadığını söylədi:

“İbtidai siniflərdə sinif rəhbərləri qadınlar olur. Qadınların analıq instinkti, azyaşlılara qayğı göstərmələri tədris prosesinə məhz onları cəlb edir. Təbii ki orta məktəblərdə kişi müəllimlərin çoxluq təşkil etməsi sevindirici hal olardı. Bu həm məktəbin, həm də siniflərin psixoloji abhavasına çox müsbət təsir göstərərdi. Biz bilirik ki, oğlan uşaqlarının identifikasiyası ata ilə baş verir. Orta məktəblərdə kişi müəllimlərin olması natamamlıq kompleksi yaşayan uşağa yardım etmək baxımından yaxşı təsir göstərər. Ona görə də tədrisə kişi müəllimlərin cəlb edilməsi xüsusən oğlan uşaqlarının tərbiyəsində önəmli rol oynayır. Məktəblərdə kişi və qadın müəllimlərin birgə fəaliyyəti uşaqların düzgün inkişafına və dünya görüşünün artmasına səbəb olur. Bu səbəbdən yaxşı olardı ki, məktəblərdə kişi müəllimlərin sayı artırılsın. Sözügedn məqam uşaqların gələcəyə sağlam şəxsiyyət kimi yetişdirilməsinə birbaşa xidmət edəcək”.

Mütəxəssislərin fikrindən belə qənaətə gəldik ki, bu gün kişi müəllimlər sayca qat-qat az olması, gecikmiş həyəcan siqnalıdır. Tədbirlər vaxtında görülməsə nəticələr daha da ağırlaşa bilər.

*✍ Banu*

# “Bakcell” yenilənmiş konsept mağazasını təqdim edib

**Bakcell Bakı şəhərində, “Sahil” metro stansiyasının yaxınlığında yeni konsept mağazasını istifadəyə verib. Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni dükan özündə müştəri xidməti, eyni zamanda nömrə və aksessuar satışı funksiyasını birləşdirərək “hər şey bir arada” innovativ konsepsiyası əsasında qurulub. Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən yeni mağazanın qurulmasıda müştəri yönümlü yanaşmadan istifadə edilib.**




Burada abunəçiləri mobil rabitə xidmətlərinə aid bütün məsələlərdə kömək edə bilən xüsusi hazırlıq keçmiş əməkdaşlar qarşılayacaq. İnteryerin sadə zona bölgüsü sayəsində müştərilər üçün bütün lazımi məlumatlar daha əlçatan, müştəri xidməti təmsilçiləri və dükan əməkdaşları ilə ünsiyyət isə daha asandır. “Əminəm ki, bu konsept mağazada biz hər bir müştərimizə daha üstün keyfiyyətli xidmət göstərəcəyik, çünki bütün yeni açılan mərkəzlərimizdə olduğu kimi, burada da bütün xidmət prosesi “hər şeyin mərkəzində müştəri dayanır” yanaşması üzərində qurulub. Xidmətlərimizi Azərbaycanın bütün regionlarında yaşayan abunəçilərimiz üçün daha əlçatan etmək məqsədilə biz ölkənin müxtəlif şəhər və rayonlarında yeni konsept mağazaların qurulmasını davam etdirəcəyik. Bu il növbəti dəfə “Azərbaycanın ən sürətli mobil şəbəkəsi” adına layiq görülmüş Bakcell şəbəkəsi və özündə yüksək keyfiyyətli müştəri xidməti və satış funksiyasını birləşdirən yeni konsept mağazalar vasitəsilə biz müştərilərimizi bazarda ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcəyik”, deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib. Mağazanın şəhərin mərkəzində yerləşməsini nəzərə alaraq, burada korporativ müştərilərə xidmətin göstərilməsi və B2B görüşlərinin keçirilməsi də nəzərdə tutulub. Qeyd edək ki, Bakcell şirkəti bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb.

# Pensiyalar nə qədər artırılacaq?

◂ əvvəli 1-ci səhifədə

Hesablamalar aparanda görünür ki, təkcə elektrin enerjisi ilə qazın qiymətinin dəyişməsindən yalnız limitlər çərçivəsində istehlak gücü olan ailələrdə təxminən il ərzində 180 milyon manat civarında əlavə xərc yükü yaranacaq. Bəzən yanaşmalar olur ki, 1-2 qəpik artımla nə dəyişir ki? Bu tamamilə absurd yanaşmadır. Məsələn, limitlər çərçivəsində istehlak gücü olanlar aztəminatlı, zəif sosial qruplardır. Onlar maksimum dərəcədə qənaətlə yaşamağa çalışırlar. Amma bu artımlar onlara əlavə 180 milyon manatlıq yük yaradacaq. Ümumiyyətlə götürdükdə, biznes və vətəndaşı nəzərə almış olsaq, son günlər qəbul olunmuş qərarlar ailə büdcələri üçün 400-450 milyon manat əlavə yük yaradacaq. Bu sosial qruplar da gəlirləri minimum səviyyəsində olanlardır. Minimum pensiya alanlardır,minimum müavinət alanlardır, minimum əmək haqqı alanlardır və s. Məsələn, hökumət 2019-cu ildə sosial genişlənməyə gedəndə bununla bağlı əsaslandırmada qeyd olunmuşdu ki, 400 min nəfər dövlət sektorunda çalışan, 500 min nəfər özəl sektorda çalışan insan bu qərardan yaralanacaq. Bu o demək idi ki, ölkədə 900 min insan minimum əməkhaqqı səviyyəsində məvacib alır. Biz bunu 2 nəfərlik ailə kimi götürmüş olsaq, bu 1 milyon 800 min insan deməkdir. Və böyük sosial qrupların problemlərinin həlli bu gün hökumətin əsas hədəflərində olmalıdır”. Rəsmi mənbələrdə infilyasiya ilə bağlı açıqlanan rəqəmlərin reallığı əks etditmədiyi qənaətində olan R.Həsənov vurğulayıb ki, ölkədəki mövcud infilyasiya rəsmi mənbələrdə göstərilən rəqəmlərdən dəfələrlə yüksəkdir: “Bu il böyük ehtimalla umumi infilyasiya səviyyəsi təxminən 15 faiz ətrafında olacaq. Düzdür, rəsmi statistika bunu təsdiqləməyəcək. Amma reallıq bundan ibarətdir. Biz bir də sosial qruplar üzrə infilyasiyanı nəzərə ala bilərik. Burda qiymətlərin dəyişmə indeksi təxminən 20-25 faiz arasındadır. Bəzi məhsullar üzrə hətta ilin əvvəli ilə müqayisədə 70 faiz bahalaşma qeydə alınıb. Hökümət isə böyük ehtimalla bu il üzrə infilyasiyanı 5,5-6 faiz civarında göstərəcək”. “Hazırda 2022-ci il dövlət büdcəsinin layihəsi ilə bağlı müzakirələr gedir. Vacibdir ki, gələn il sosial artımlarla bağlı büdcədə müvafiq vəsaitlər ayrılsın və əhali qısa müddətdə bu artımlardan faydalana bilsin”.

Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib. Nazir müavini deyib ki, Prezident İlham Əliyevin “Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” 16 oktyabr 2021-ci il tarixli sərəncamına uyğun olaraq, əsasən minimum pensiyalar, minimum əməkhaqqı, müavinət və təqaüdlərin 20-40 faiz artırılması nəzərdə tutulur: “Artımlar 1,8 milyon nəfəri əhatə edəcək. Bu, çox vacibdir. Çünki 2019-2020-ci ildə sosial islahatlar aparılıb, iki mərhələdə artımlar olub. Pandemiya olduğu üçün 2020-ci ildə anti-pandemiya tədbirləri həyata keçirilib. Prezidentin tapşırığı ilə növbəti ildə geniş miqyaslı artımlar planlaşdırılır”.

*✍ Sevinc*

# Tezhazırlanan süni qidalar

## Menyu

*Ənənəvi olaraq hər çərşənbə "Menyu" rubrikamızın müxtəlif mövzuları olur. Budəfəki müzakirə obyektimiz el arasında "Rolton" kimi tanınan tezhazırlanan qidalardır. Nəzərinizə çatdıraq ki, belə yeməklərdən indi daha çox gənclər, xüsusən də tələbələr istifadə edirlər. Qiymətləri də olduqca münasibdir - 40-80 qəpikdən başlayaraq dəyişir. İştahgətirən qoxu və dadı ilə sevilən bu şorbaları istehlak edənlərin yaş həddi gün-gündən azalmaqdadır. Hətta onu quru-quru yeyən məktəblilərə də rast gəlmək mümkündür.*



■ **Mövzu ilə bağlı hafta.az-a danışan sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova ilk baxışdan məsum görünən tezhazırlanan şorbaların qorxunc ziyanlarından bəhs etdi:**

"Tezhazırlanan "rolton" və bu kimi digər qidaların insan orqanizminə çox zərəri var. Əslində, həmin yeməklər ilk baxışdan məsum görünür. Az müddətdə suda qalan, un, duz və sudan hazırlanan bu xəmir sənaye üsulu ilə incə-incə doğranılır. Gözümüzə un kimi görünsə də, tərkibində həddindən artıq nişasta var. Bunun sayəsində qısa müddətdə suda şişir və yumşalır. Belə hallar mədədə qastritə və mədə xoralarına, həzm problemlərinə səbəb olur. Bundan başqa, belə yeməklərin ən böyük zərərlərindən biri də gözümüzə faydalı kimi görünən yanındakı əlavələridir. Hansı ki, biz onları göyərti və ədviyyat olaraq qəbul edirik. Həmin əlavələrin tərkibində ziyanlı kimyəvi qatqılar var. Həmçinin sözügedən qidaların yanında təqdim edilən yağların əksəriyyəti palma yağlardır. Düzgün istehsal edilən belə məhsulların üzərində həmin yağların palmamənşəli olduğu aydınca qeyd edilir. Bəzən istehsal qaydalarına məhəl qoymadan belə məhsullara əlavə məlumatlar qeyd olunmur". Ekspertin sözlərinə görə, bütün sadalanan amillər insan orqanizminə olduqca ziyanlıdır. Ən pisi isə odur ki, bu yeməklərdən daha çox gənclər, tələbələr istifadə edirlər. Təəssüflər olsun, bu yeməyin istehlakçıları ağır nəticələrindən xəbərsizdirlər:



**Məhsəti Hüseynova,**
qida üzrə mütəxəssis

*"Gənclərin belə qidalardan davamlı istifadə etmələri gələcəkdə övladlarında alsheymer xəstəliyi riskini artırır*

"Gənclər indi bu yeməklərin fəsadlarını hiss etməsələr də, zaman keçdikcə mədə-bağırsaqlarında baş verəcək nasazlıqlar qaçılmazdır. Eyni zamanda onun tərkibində natrium-qlutomat, sodium-qlutomat kimi tanınan kimyəvi maddələrdən də istifadə edirlər. Təbii halda bu maddə zərərli olmasa da, bu cür yeməklərdə istifadə edilənlər sintetikmənşəlidir. Onlar birbaşa dad reseptorlarını pozur, orqanizmdən həzm edilmir.

Gənclərin belə qidalardan davamlı istifadə etmələri gələcəkdə övladlarında alsheymer xəstəliyi riskini artırır. Başqa bir məqam isə belə qidaların boş karbohidratlarla zəngin olmasıdır. Ənənəvi üsullarla bişirilən makaronlar aralıqlı müddətdə istehlak edildikdə ziyanlı deyil. Tezhazırlanan makaronların ömrünü uzun saxlamaq üçün tərkiblərinə başqa kimyəvi qatqılar əlavə edilir. Bu da insan orqanizmi üçün böyük təhlükədir".

M.Hüseynova sözügedən yeməklərin davamlı istifadə zamanı asılılıq yaratdığını da vurğuladı:

"Monosodium-qlutomat dad reseptorlarını pozduğu və asılılıq yaratdığı üçün insan ənənəvi qidalardan zövq ala bilmir. Nəticədə ziyanlı qidalara üstünlük verilir. Gənclər bu cür tezhazırlanan yeməklərdən istifadə edən zaman yaxşı olardı ki, əlavələrindən imtina etsinlər. Sonda isə onu deyə bilərəm ki, sağlamlığını düşünən insana bu tərz tezhazırlanan qidalardan uzaq durmaq tövsiyə edilir".

*✍ Banu*

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏLTİFİ



Prezident İlham Əliyev Məhərrəm Əliyev haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Abış oğlu Əliyev "Şöhrət" ordeni ilə təltif edilib. Qeyd edək ki, Prezidentin köməkçisi, Prezidentin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyevin 70 yaşı tamam olub.

### Həftənin MƏRHUMU



Tanınmış jurnalist Elnur Əşrəfoğlu vəfat edib. Bu barədə "Yeni Klinika" məlumat yayıb. Bildirilib ki, həkimlərin səyinə baxmayaraq Elnur Əşrəfoğlu koronavirus səbəbindən dünyasını dəyişib. Qeyd edək ki, 47 yaşlı jurnalist sentyabrın əvvəllərində koronavirusa yoluxub. Əvvəlcə ev şəraitində müalicə alan E.Əşrəfoğlu daha sonra "Yeni Klinika"ya köçürülüb. O, oktyabrın 11-də ECMO cihazından ayrılıb.

### Həftənin FALÇISI



Ağstafa rayonunda dələduzluq edən "falçı" saxlanılıb. Bir nəfər rayon sakinini fala baxmaq adı ilə aldadaraq onun pulunu mənimsəyən Bakı şəhər sakini Gülarə Abıyeva saxlanılıb. Məlum olub ki, G.Abıyeva Ağstafa rayonuna gələrək rayon sakininin qohumlarının məzarında cadu olduğunu bildirib və ondan həmin cadunun tapılmasına görə 2000 manat pul alıb.

### Həftənin XƏSTƏSİ



ABŞ-ın eks-prezidenti Bill Klinton xəstəxanadan evə buraxılıb. O, müalicəsini Nyu-Yorkda evində davam etdirəcək. Bu barədə Klintonun yerləşdirildiyi tibb müəssisəsinin direktoru Alpeş Amin məlumat verib. Qeyd edək ki, Bill Klinton oktyabrın 12-dən xəstəxanadadır. O, "sepsis" diaqnozu ilə xəstəxanaya yerləşdirilib.

### Həftənin PƏRTİ



Oktyabrın 14-də Avrasiya Ali İqtisadi Şurasının iclasında videokonfrans formatında çıxış edən Ermənistanın Baş naziri Nikol Paşinyan çətin anlar yaşayıb. Onun çıxışı zamanı mikrofonun səsi gəlməyib. Texniki problem aradan qaldırılsa da, az sonra yenidən təkrarlanıb. Səsi kəsilən Baş nazir pərt olub.

### Həftənin ƏN PİSİ



Polşa Ekstraklasasında 11-ci turun ən pis futbolçulardan ibarət rəmzi komandası açıqlanıb. "Wezslo" nəşrinin açıqladığı siyahıda Azərbaycan millisinin üzvü Mahir Emreli də yer alıb. "Legiya"nın heyətində "Lex"lə matçda zəif çıxış edən hücumçu ən zəiflər arasında olub. Qeyd edək ki, Mahir Emreli "Lex"lə oyunda 65 dəqiqə meydanda olub və yalnız bir dəfə rəqib qapısı qarşısında təhlükəli vəziyyətlə yadda qalıb.

### Həftənin HƏDİYYƏSİ



Türkiyənin məşhur müğənnisi İbrahim Tatlısəsin oğlu İdo Tatlısəs və gəlini Yasəmən Şefkatlıya etdiyi toy hədiyyəsinin qiymətini açıqlanıb. Tatlısəsin Şefkatlıya bağışladığı qızıl kəmərin qiyməti 450 min lirədir (82 245 AZN). Qeyd edək ki, İdo İbrahim Tatlısəsin Dərya Tuna ilə nikahından dünyaya gələn oğludur.

*✍ Azad Əliyev*




## ® "Nar" ən böyük Azərbaycandilli səsli kitabxanaya dəstəyini davam etdirir

**"Nar"ın dəstəyi ilə ölkənin ən böyük səsli ədəbiyyat kitabxanası olan "Canlı kitab" layihəsi davam edir. "Radio Antenn" 101 FM-lə birgə hazırlanan layihə çərçivəsində indiyədək dünya və Azərbaycan ədəbiyyatından 39 müəllifin 329 əsəri ana dilimizdə audiokitab şəklində "YouTube" kanalında yerləşdirilib.**

Müxtəlif janrlarda və həcmlərdə olan bədii əsərləri "Canlı kitab" kanalında "Nar"ın yüksəksürətli interneti vasitəsilə istənilən yerdən rahatlıqla dinləmək olar. Layihə həftənin şənbə və bazar günləri saat 12:00-dan 14:00-dək "Radio Antenn" 101 FM dalğasında, eyni zamanda radionun və "Canlı kitab" verilişinin rəsmi "Facebook" səhifələrində canlı yayımlanır, daha sonra antenn.az və "YouTube" səhifəsində yerləşdirilir.

Qeyd ed'k ki, layihənin məqsədi mütaliəni hər kəs, o cümlədən, görmə məhdudiyyətli şəxslər üçün daha əlçatan etməkdir. Layihə çərçivəsində əsərlərin toplandığı elektron daşıyıcıların görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlara paylanması nəzərdə tutulur.

## "Azercell könüllüləri" minlərlə ailəni sevindirib ®

**Müasir Azərbaycan tarixinin ən qürurlu, fəxarətli ilinin 9 ayını geridə qoyduq. Bu ilin başlanğıcında silahlı qüvvələrimizin işğalçıya qarşı apardığı ədalət savaşı xalq və ordu birliyinin təcəssümünə çevrildi. Xalqımız yumruq kimi birləşərək şanlı qələbə naminə bütün gücünü səfərbər edərək cəsur əsgərlərimizə dayaq, arxa oldu. Hər kəsin vətən fədaisinə çevrildiyi bu müddət ərzində "Azercell könüllüləri" xeyriyyə təşkilatı da aktiv fəaliyyət göstərib. Azercell əməkdaşlarından ibarət olan bu komanda həm müharibə iştirakçılarının özlərinə, həm də müharibənin çətinlikləri ilə üzləşmiş ailələrə xüsusi qayğı nümayiş etdirib.**

Azercell
Könüllüləri
Hər kəsə sevgi və qayğı

"Azercell könüllüləri" 30 ilə yaxın fasilədən sonra üçrəngli bayrağımızın dalğalandığı əksər zonalara böyük həvəslə əsgər payı çatdırıblar. Şirkət əməkdaşlarının topladığı yardımlar Cəbrayıl, Şuşa, Zəngilan, Qubadlı, Füzuli, Laçın rayonlarında döyüş bölgəsində olan 1200-dən çox əsgərə göndərilib.

Ötən il Dünya Azərbaycanlıların Həmrəyliyi günü və Yeni il bayramı ərəfəsində "Azercell könüllüləri" Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın, eləcə də qazilərimizin övladlarına əsl bayram sevinci yaşadıblar. Bayramdan öncə Gəncə və Bərdə şəhərlərində erməni təxribatı nəticəsində raket zərbələrindən ziyan çəkmiş azyaşlıların, eləcə də "SOS Uşaq Kəndləri Azərbaycan" sakinlərinin arzuladıqları hədiyyə siyahısı sosial şəbəkələrdə açıqlanıb. Nəticədə könüllülər və sosial media vasitəsilə onlara dəstək verən dostların köməyilə ölkə üzrə ümumilikdə 500-dən çox uşağa məhz özünün istədiyi hədiyyələr təqdim olunub.

Gələcəyimiz olan körpələrimiz 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə də Azercell-in könüllülər tərəfindən unudulmayıb. Bu bayramda 100 uşağa müxtəlif hədiyyələr göndərilib.

Azercell könüllüləri uşaqlarla yanaşı, ikinci Vətən Müharibəsinin şəhid və qazi ailələrini də diqqətdən kənarda qoymayıblar. Azərbaycanın bütün bölgələrində reallaşdırılan aksiya çərçivəsində könüllülər Novruz bayramında 300 qəhrəmanımızın ailəsinə gündəlik ərzaq mallarından ibarət sovqat, 50 AZN dəyərində kupon təqdim ediblər. Hər kəsdə paylaşma ovqatını gücləndirən müqəddəs Ramazan və Qurban bayramlarında isə "Azercell könüllüləri"nin sayəsində 200-ə yaxın şəhid və qazi yaxınlarına, həmçinin aztəminatlı ailələrə bayram sovqatı çatdırılıb. Eyni zamanda, könüllülər Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisi və mülki infrastrukturuna vurulan zərərdən əziyyət çəkən vətəndaşlarımıza da dəstək olublar. Gəncə və Bərdədə 130 belə ailəni ziyarət edərək, onları bayram sovqatı ilə təbrik ediblər.

Koronavirus pandemiyası dönəmində tətbiq edilən sərt karantin rejimində də "Azercell könüllüləri" nümunəvi fəaliyyətləri ilə yadda qalıblar. Onlar paytaxt və regionlarda 400 ailəyə baş çəkərək tənha yaşayan ahıllara, aztəminatlı ailələrə, fiziki məhdudiyyəti olan şəxslərə müxtəlif ərzaq məhsullarından ibarət bağlamaların çatdırılmasında köməklik göstəriblər. Xeyriyyəçilik missiyasının tərkib hissəsi kimi "Azercell könüllüləri" mütəmadi şəkildə aztəminatlı ailələrə maddi və mənəvi dəstəklərini əsirgəmirlər. 20-dən çox ailənin problemləri daimi olaraq təşkilatın diqqətindədir. Bəzi ailələrə maddi yardım göstərilir, bəzilərinə mənzil şəraitinin yaxşılaşması, sağlamlıqla bağlı problemlərin həlli üçün ödənişlərinin həyata keçirilməsi istiqamətində dəstək verilir.

"Azercell könüllüləri" bu cür fəaliyyəti ilə ölkəmizdə xeyriyyəçilik ənənələrinin inkişafı, həmrəylik prinsiplərinin güclənməsi istiqamətində aparılan işlərə öz əvəzolunmaz töhfəsini verirlər. Qeyd edək ki, təşkilat rəsmi olaraq 2004-cü ildən etibarən fəaliyyət göstərir, və minlərlə xüsusi qayğıya ehtiyacı olan insanlar dəstək olub. Aztəminatlı vətəndaşlarımıza, şəhid və qazi ailələrinə, həmçinin kimsəsiz və valideyn qayğısından məhrum olmuş uşaqlara yardım etmək, onları gələcək uğurlara istiqamətləndirmək "Azercell könüllüləri" üçün böyük önəm kəsb edir. Sosial məsuliyyət öhdəliklərinə sadiq qalan əməkdaşlarımız gələcəkdə də bu yanaşmanı davam etdirəcəklər. "Azercell Könüllüləri" keçirdikləri xeyriyyə aksiyalarına qoşulan və iştirak edən tərəfdaş şirkətlərə, sosial şəbəkə izləyicilərinə öz təşəkkürünü bildirir.

## GÜNÜN FOTOSU



Roma Papasının həftəlik görüşündən maraqlı görüntü...

## 18 Oktyabrla bağlı qərar doğrudur

**Ayaz Mütəllibov,**
Azərbaycan Respublikasının keçmiş Prezident

Xaricdən, o cümlədən Moskvadan bizə heç bir təzyiq, yaxud göstəriş olmadı. ▸▸ Səh. 6

## STATİSTİKA



■ Dünyada hazırda 4,8 milyard aktiv internet istifadəçisi var.

■ Dünyada internet istifadəçilərinin sayı hər il orta hesabla 8,2 faiz artır.

■ Dünyada mövcud olan veb-saytların 25 faizi ingilis, 19,5 faizi isə Çin dilindədir.

■ İnternetdən istifadə edənlərin sayına görə Asiya qitəsi ilk yeri tutur - 2 milyard nəfər.



▸▸ Səh. 7

## Falçılara daha çox kimlər inanır?